

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Aparatının rəhbəri Kamboca Krallığında parlament seçkilərini müşahidə edib



6

# "Sülh müqaviləsinin imzalanmasına ən yaxın gələcəkdə nail olmaq olar"



2

*Prezident İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verib*

SƏS

№ 129 (6812)

25 iyul 2023-cü il.
Qiymәti 60 qәpik

# Qlobal Media Forum fonunda ERMƏNİ CƏMİYYƏTİNDƏ REZONANS




7

## Dünya mediası: Azərbaycan rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır!


Jurnal.md 7

**Президент Азербайджана объяснил, от чего зависит развитие Южного Кавказа**

"Вы знаете, на самом деле региональное развитие - я имею в виду Южный Кавказ - в основном зависит от улучшения отношений между Азербайджаном и Арменией", заявил президент Азербайджана Ильхам Алиев во время выступления 21 июля на Шушинском глобальном медиафоруме на тему "Новые медиа в эпоху 4-й Промышленной революции".

9

## Qubad İbadoğlunun Fətullah Gülənlə iş birliyi təsadüfi deyil



12

## Böyük qayıdış: DÜNYAYA ÖRNƏK OLACAQ AĞDAM!




11



## Tofiq Yaqubluya bir neçə xatırlatma

13

## Qarabağ ipəyi yenə dünyaya səs salacaq



15

# “Sülh müqaviləsinin imzalanmasına ən yaxın gələcəkdə nail olmaq olar”

*Prezident İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verib*

**”China Global Television Network” televiziya kanalında yayımlanıb. AZƏRTAC müsahibənin geniş variantını təqdim edir.**

***Müxbir: Müsahibəyə görə minnətdarıq. Biz yalnız üç gündür Bakıdayıq. Ölkənizin və şəhərin nə dərəcədə müasir olması bizdə dərin təəssürat yaratdı və getdiyimiz hər yerdə bir Azərbaycan elementi var.***

Prezident İlham Əliyev: Düzdür. İlk öncə, Azərbaycana xoş gəlmisiniz. Gəldiyinizə və ölkəmizə diqqət yetirdiyinizə görə sağ olun. Çox şadam ki, siz Azərbaycanda bir neçə gün olacaqsınız və bu, ölkəmizi və xalqımızı daha yaxından tanımaq üçün yaxşı fürsət olacaqdır. Tamamilə haqlısınız ki, biz şəhərlərimizin əsl orijinallığını, nailiyyətlərini qoruyub saxlayırıq. Eyni zamanda, biz ölkəmizi müasirləşdiririk. Bakıda gördükləriniz müasirliklə ənənələrin qovuşmasıdır və hesab edirəm ki, onlar bir-birinə qarşı çıxmır, bir-birinə zidd deyil. Bu, məqsədyönlü şəkildə edilib, çünki Bakı kimi tarixi şəhərdə ilk məqsəd tariximizi və memarlıq abidələrini qorumaqdır. Eyni zamanda, şəhərə inkişaf etmək imkanı verilməlidir. Bakıda hər iki məqamı duya bilərsiniz. Zənnimcə, bu, həqiqətən mühüm nailiyyətdir və bunu qeyd etdiyinizə görə sağ olun.

***Müxbir: Sizin qədər olmasa da, biz də bir sıra şəhərlərdə olmuşuq. Ancaq Bakı mənim səfər etdiyim heç bir şəhərə bənzəmir.***

Prezident İlham Əliyev: Sağ olun.

Müxbir: Cənab Prezident, müsahibəmizin əvvəlində bildirmək istəyirəm ki, bu il mərhum atanız Ümummilli Lider Heydər Əliyevin 100 illiyi qeyd olunur. O, təkcə Ulu Öndər və müasir Azərbaycanın qurucusu deyil, Çin-Azərbaycan dostluğunun təməlini qoyan şəxs olub. Ona görə bir daha onun xatirəsinə ehtiramımızı ifadə edirik.

Prezident İlham Əliyev: Çox təşəkkür edirəm. Tamamilə haqlısınız ki, Heydər Əliyev Azərbaycanın dövlətçiliyini quran, ölkəni inkişaf yoluna yönləndirən, vətəndaş müharibəsinin qarşısını alan, 1990-cı illərin əvvəlində hökm sürən qarışıqlıq və xaos vəziyyətinə son qoyan şəxs idi. O, həmçinin bu gün də rəhbər tutduğumuz daxili və xarici siyasət prioritetlərini müəyyən etdi. Əlbəttə, 30 il ərzində dünya dəyişib, lakin bizim başlıca məqsədlərimiz dəyişməz olaraq qalıb - dövlətçiliyimizin möhkəmləndirilməsi, qabaqlayıcı tədbirlər görməklə milli maraqlarımıza əsaslanan fəal xarici siyasətin yürüdülməsi və Azərbaycanın iqtisadi, siyasi inkişafı. Buraya olduqca fəal regional siyasətin həyata keçirilməsini də əlavə etmək olar. Əlbəttə, müstəqilliyimizin ilk günlərindən əsas məqsədlərdən biri ölkəmizin ərazi bütövlüyünün bərpası idi. Buna da iki ildən bir az artıq əvvəl nail olunub.

Tamamilə haqlısınız ki, o, Azərbaycan-Çin münasibətlərinin inkişafında çox vacib rol oynayıb. Onun Çinə səfərləri və Çinin rəhbərləri ilə görüşləri əməkdaşlığımızın çərçivəsini yaratdı. O vaxtlar dünyada Azərbaycan o qədər də tanınmırdı. Bunun təməli məhz o vaxt qoyulub və bu gün mən olduqca şadam ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir və daha çox sahələri əhatə edir. Əməkdaşlığın gündəliyi 30 il əvvəlkindən daha genişdir. Bu münasibətlər qarşılıqlı hörmət və dostluq üzərində qurulub.



## Prezident:
## ”Son zamanlar Azərbaycan-Çin münasibətləri daha da intensivləşib”

***Müxbir: Bir çox çinli izləyici diqqət yetirib ki, atanız Çinə rəsmi səfərləri zamanı rəsmi proqramdan əlavə o, sadə çinli ailələrlə görüşüb və onların həyatı ilə maraqlanıb. Çinli məktəblilərlə görüşüb və bölgələrə səfərlər edib. Buraya biz fotoları gətirmişik və Sizdən xahiş edək ki, bunlarla bağlı əlavə məlumat verəsiniz. Məsələn, bu şəkil 1990-cı illərdə çəkilib. Burada o və çinli ailədir.***

Prezident İlham Əliyev: Bəli, düzdür.

***Müxbir: Gözəl şəkildir.***

Prezident İlham Əliyev: Bəli. Bu, bir daha onu nümayiş etdirir ki, sizin dediyiniz kimi, o, yalnız rəsmi təmaslarla kifayətlənmirdi və xalqlar arasında münasibətlər qurmağa çalışırdı. Bu foto da məhz onu nümayiş etdirir.

***Müxbir: Bu fotoda isə o, məktəblilərlə söhbət edir.***

Prezident İlham Əliyev: Bəli.

***Müxbir: Onlara hədiyyə verir. Xoşunuz gəlirmi?***

Prezident İlham Əliyev: Bəli, bu, sizin dediklərinizin aydın təzahürüdür. Sağ olun.

Müxbir: Burada isə Çin səddinə, ”Qadağan olunmuş şəhər”ə və digər tarixi yerlərə səfərlər var.

Prezident İlham Əliyev: Bəli.

***Müxbir: Atanız Çini və oraya səfərlərini Sizə necə təsvir edirdi? Çin onun üçün nə demək idi və Siz nəsildən-nəslə ötürülmüş bu dostluğun davamını necə görürsünüz?***

Prezident İlham Əliyev: Əslində, Çin onun üçün tanımadığı ölkə deyildi. O, müxtəlif dövrlərdə Çinin inkişafı ilə bağlı yaxşı məlumatlı idi. Vaxtilə o, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışıb və Çin nümayəndələri ilə bir çox görüşlər keçirib. O, ölkənizin dinamikası və inkişafından yaxşı xəbərdar idi. Müstəqil Azərbaycanın Prezidenti seçiləndən sonra isə onun əsas xarici siyasət prioritetlərindən biri Çinlə ikitərəfli münasibətlər qurmaq idi. Xatırlayıram ki, o, Çinə rəsmi səfərdən böyük təəssüratla qayıtmışdı. Heydər Əliyev Çinin artmaqda olan gücünü, həmrəy cəmiyyətini və aydın məqsədlərə malik ölkəni gördü - bunlar təxminən 30 il öncə baş vermişdi.

Sıravi insanlarla görüşlər isə onun təbiəti ilə bağlı idi. O, burada - Azərbaycanda da hər zaman çalışırdı ki, cəmiyyətin nəbzini tutsun, insanların necə yaşadığını, nə fikirləşdiyini, hansı problemlərlə üzləşdiyini və hansı arzulara malik olduğunu bilsin. Təbii ki, o, Çində, həmçinin sadə insanların həyat tərzi ilə maraqlanırdı.

Beləliklə, bizim ikitərəfli münasibətlərimizin təməli həmin tarixi səfər nəticəsində qoyuldu və həmin vaxtdan onların dinamik inkişafı üçün mühüm potensial vardır.

***Müxbir: Biz Bakının müxtəlif yerlərində atanızın heykəllərini gördük və onun adını daşıyan prospektlər, memoriallar var. Zənnimcə, burada Sizin atanıza olan ehtiram və məhəbbətin daha dərin mənası var. Şəxsən Sizin üçün atanız kim olub?***

Prezident İlham Əliyev: Xüsusilə Azərbaycan cəmiyyətində hər bir övlad üçün onun valideynləri çox əzizdir. Azərbaycan cəmiyyəti ənənəvi dəyərlər, ailə dəyərləri üzərində qurulub. Bu ənənələr dərin köklərə malikdir. Vacib haldır ki, 30 il müstəqil ölkə olaraq qlobal mühitdə yaşamağımıza baxmayaraq, bu ailə dəyərlərimizi və böyüklərə hörməti qoruya bilmişik. Bu, bizim cəmiyyətimizin təməlidir. Hər bir azərbaycanlı kimi, mənim üçün də atam əziz insan olub. O insan ki, ona bənzəməyə çalışırsan, xüsusilə ata ilə fəxr edə biləndə. Bu belə olur. Mənim üçün bu, böyük xoşbəxtlikdir, çünki mən həm şəxsən onun üçün, həm də Azərbaycan xalqı üçün ən çətin vaxtlarda atamın yanında olmuşam.

Xüsusilə 1990-cı ilin 20 yanvarında sovet ordusu Azərbaycana hücum edərkən, o, həmin qanlı hücuma qarşı etiraz səsini ucaldan və bu hadisəni pisləyən bəlkə də yeganə şəxs idi. O, yaxşı dərk edirdi ki, bu, ona baha başa gələ bilər. Biz Sovet İttifaqında yaşayırdıq, ölkənin dağılmasına hələ iki il qalırdı və 1990-cı ilin yanvarında bunu hələ heç kəs təsəvvür edə bilməzdi. Yüzdən artıq günahsız insanın, mülki vətəndaşın həyatına son qoyan bu zorakı və qanlı hücumu pisləmək böyük cəsarət və xalqa sevgi tələb edirdi.

Bununla yanaşı, o, sovet hökumətinin anti-Azərbaycan mövqeyi səbəbindən kommunist partiyasını tərk etdi. Bunun özü də çox cəsarətli addım idi, çünki sovet hökuməti və sistemi hələ də çox güclü və qəddar idi. O, bunları nəzərə almalı idi, lakin onun üçün Azərbaycan xalqının milli maraqları, milli qüruru və ədalət şəxsi amillərdən üstün idi. Bu, onun üçün və bizim üçün mürəkkəb dövr idi, lakin ailəmiz bir yerdə idi.

Eyni vəziyyət Azərbaycanda vətəndaş qarşıdurması zamanı qarışıqlıq, çaşqınlıq və xaosun hökm sürdüyü dövrdə idi. Azərbaycan xalqı vəziyyətdən xilas yolunu yalnız Heydər Əliyevdə gördü və ən çətin vaxtda onu dəvət etdi. O, gənc deyildi, onun artıq 70 yaşı var idi. Onun 1993-cü ildə Azərbaycanda rəhbərliyi öz üzərinə götürməsi həqiqətən çox cəsur addım idi. Bu, onun Azərbaycan xalqına məhəbbətini və sadiqliyini bir daha nümayiş etdirdi. Azərbaycanlıların onu müasir Azərbaycanın qurucusu hesab etməsi tamamilə doğrudur.

***Ardı Səh. 3***

# “Sülh müqaviləsinin imzalanmasına ən yaxın gələcəkdə nail olmaq olar”

*Prezident İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verib*



## “Mənim üçün Qərb mətbuatının yazdığı deyil, Azərbaycan xalqının hökumətimizin siyasəti barədə düşündüyü vacibdir”

Əvvəli Səh. 2

Ona olan ehtiram təkcə bir meyarla bağlı deyil, burada müxtəlif səviyyələr var. O, bütün həyatını bu işə həsr etdi. Ən mürəkkəb dövrdə ölkəyə rəhbərlik etmək, ən münasib həll yollarını müəyyənləşdirmək, eyni vaxtda müdriklik və cəsarət nümayiş etdirmək - bütün bunlar siyasətçiyə xas olan nadir keyfiyyətlərdir.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan böyük ölkə deyil. O vaxt artıq Azərbaycanın bir hissəsi Ermənistan tərəfindən işğal edilmişdi və biz nəhəng iqtisadi çətinliklərlə üzləşmişdik. İnflyasiya 1000 faizdən artıq idi. İşsizlik və yoxsulluq hökm sürürdü. Ordu demək olar ki, mövcud deyildi. Belə bir vəziyyətdə ölkəni parçalanmaqdan qorumağa, onu inkişaf yoluna çıxarmağa və bugünkü səviyyəyə çatdırmağa müvəffəq olmağı yalnız böyük şəxsiyyət edə bilərdi.

Bizim və şəxsən mənim hədəfim isə dünyanın və Azərbaycanın dəyişməkdə olduğunu nəzərə alaraq Heydər Əliyev siyasətini davam etdirmək, ölkəni müasirləşdirmək, bir də heç vaxt digərlərinin hökmranlığı altında yaşamamaq üçün müstəqilliyimizi möhkəmləndirmək, özünü təmin edən güclü iqtisadiyyat qurmaq və insanların daha yaxşı yaşamasına şərait yaratmaqdır.

Beləliklə, təkcə 100 illiyini qeyd etdiyimiz üçün deyil, ümumiyyətlə, müasir Azərbaycan haqqında danışarkən faktdır ki, təməl Heydər Əliyev tərəfindən qoyulub və 1990-cı illərin mürəkkəb dövründə onun liderliyi olmasaydı, bugünkü Azərbaycan başqa vəziyyətdə olacaqdı. Hansı problem və çətinliklərlə üzləşəcəyini heç təsəvvür etmək belə olmazdı.

***Müxbir: Dünyanın dəyişməkdə olan geosiyasi mənzərəsi fonunda Azərbaycan həssas rol oynayaraq böyük nailiyyətlər əldə edə, iqtisadi və sosial baxımdan özü üçün nadir inkişaf yolu yarada bilib. İcazənizlə, Çin-Azərbaycan əlaqələrindən danışaq. Bu yaxınlarda Siz bu münasibətləri əla adlandırdınız. Hazırda vəziyyət nə yerdədir və Sizcə bu əlaqələri növbəti səviyyəyə qaldırmaq üçün nə edilməlidir?***

Prezident İlham Əliyev: Bəli, bunu bir daha təsdiq edə bilərəm ki, münasibətlər əla səviyyədədir və bu təhlil, bu ifadə ikitərəfli əlaqələrin geniş gündəliyini və əməkdaşlığın çox aydın perspektivlərini əhatə edir. Hesab edirəm ki, ikitərəfli əlaqələrdə əldə etdiyimiz nailiyyətlər çox uzun bir yolun başlanğıcıdır. Ümid edirəm ki, bu, strateji əməkdaşlıq yolunun başlanğıcıdır. Çünki bu gün regionun siyasi, habelə nəqliyyat marşrutları xəritəsinə nəzər saldıqda görürük ki, ölkələrimiz bir-biri ilə nə dərəcədə eyni mövqedən çıxış edir. Beynəlxalq gündəliyə aid təməl məsələləri götürsək görərik ki, bizim mövqelərimiz suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq məsələlərində üst-üstə düşür. İqtisadi əməkdaşlıq məsələlərində mövqelərimiz üst-üstə düşür. Biz qarşılıqlı ticarətin həcminin artmasını görürük və böyük potensial xüsusilə göz qabağındadır. Biz ölkələrimizi gələcəkdə daha da birləşdirəcək meydana gələn yeni nəqliyyat marşrutlarını görürük. Bunun özü də regional təhlükəsizliyə və sabitliyə böyük töhfə olacaqdır. Çünki ölkələr qarşılıqlı faydalı əməkdaşlıq formatı çərçivəsində birləşirsə, bu, regionun sabitliyini, proqnozlaşdırılmasını, firavanlığını və inkişafını gücləndirir.

Beləliklə, xarici siyasət prioritetlərinə və gündəliyə gəldikdə, mən Azərbaycanın və Çinin siyasətləri arasında və istənilən digər istiqamətdə bir çox oxşarlıqlar görürəm. Son zamanlar bizim münasibətlərimiz daha da intensivləşib və əlbəttə, mənim cənab Si Cinpinlə görüşlərim istiqamətlərin təyin edilməsində və inkişaf üçün aydın hədəflərin müəyyən olunmasında vacib rol oynayır. Eyni zamanda, daha aşağı səviyyədə, dövlət rəsmiləri və deputatlar səviyyəsində, cəmiyyətin müxtəlif nümayəndələri və partiyalarımız arasında olan təmaslar da xüsusi əməkdaşlıq formatını yaradır. Bu səbəbdən, uzun bir yolun başlanğıcında olduğumuzu deyəndə, buraya məhz bu məsələlər daxildir. İkitərəfli əlaqələrin gələcəyinə gəldikdə isə bizim Azərbaycan və Çin arasında yekdil siyasətimiz var. Bir daha təsdiq edirəm ki, münasibətlər əladır və bundan da yaxşı səviyyəyə qalxacaqdır.

***Müxbir: Siz bir neçə dəfə Prezident Si Cinpinlə görüşlərinizə toxundunuz. Sizin onun bir lider kimi haqqında fikriniz nədir, o, Sizdə necə təəssürat yaradır?***

Prezident İlham Əliyev: Mənim Prezident Si Cinpinlə həm Çində, həm də beynəlxalq tədbirlər çərçivəsində dəfələrlə görüşmək imkanım olub. Ona dərin ehtiramım var. Onun uzaqgörənliyi, zəkası, səmimiliyi və ikitərəfli münasibətlərimiz barəsində geniş məlumatlı olması məndə hər zaman dərin təəssürat yaradıb. Çünki qlobal bir güc olaraq Çinin çox geniş xarici siyasət gündəliyi var və həmin gündəlik təbii olaraq Azərbaycanın gündəliyindən daha genişdir.

Buna baxmayaraq, bizim əməkdaşlığımızın mahiyyəti və perspektivləri barədə dərindən məlumatlı olması göstərir ki, cənab Si Cinpin olduqca məsuliyyətli şəxsdir və çox uğurlu xarici siyasət bunun nəticəsidir. Bilirsiniz ki, dünyada Çinin dostlarının sayı ildən-ilə artır və bu, məhz həmin müdrik siyasətin nəticəsidir. Biz onun ölkəsinin inkişafını və yardıma ehtiyacı olanlara dəstək istiqamətindəki fəaliyyətini yalnız alqışlaya bilərik. Hesab edirəm ki, bu, dünyada nadir hallardan biridir. Bu, xüsusilə indi aktual məsələdir. Vaxtında və digər mənbələrdən yardım ala bilməyən ölkələrə kömək edilir. Sizə Azərbaycanla bağlı nümunə deyə bilərəm. COVID-19 başlayanda biz peyvəndlərin olmaması səbəbindən böyük çətinliklərlə üzləşdik və bu məsələdə bizə yardım edən yeganə ölkə Çin oldu. Mən Prezident Si Cinpinə yardım ilə bağlı məktub yazdım, məsələyə dərhal cavab verildi və peyvəndlərin ilk həcmi - bir milyon doza təqdim edildi. Biz vaksinasiyaya yanvar ayının ortalarında, dünyada ilk sıralarda başladıq. Bu isə onun yardım göstərmək siyasətindən qaynaqlanırdı. Biz bunu necə unuda bilərik?!

Bununla yanaşı, deyə bilərəm ki, yəqin sizin də məlumatınız var, bəzi Qərb dövlətləri lazım olduğundan 5 dəfə artıq həcmdə peyvənd tədarük edirdilər və bununla da peyvənd istehsal etməyən, buna çıxışı olmayan ölkələri vaksinasiyadan məhrum etdilər. Onlar peyvənd millətçiliyi nümayiş etdirdilər. Onu da qeyd edim ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri olaraq peyvənd millətçiliyinə qarşı ictimai şəkildə mübarizə aparan ölkələrdən biri idi. Demək istədiyim odur ki, bu nümunə Çinin Azərbaycanla bağlı siyasətini nümayiş etdirir. Əminəm ki, bu siyasət yardıma ehtiyac olan zaman hər bir ölkəyə şamil edilir.

Beləliklə, dediyim kimi, mənim Prezident Si Cinpinlə çoxsaylı görüşlərim olub. İnsan olaraq o, çox mehriban, hörmətcil və səmimi adamdır və şəxsən mən onunla təmasdan çox razıyam.

***Müxbir: Bağlantı və infrastruktur layihələri haqqında danışarkən, qeyd edək ki, Azərbaycan bir rekorda imza atıb - bu, "Bir kəmər, bir yol" layihəsində iştirak edən ölkələr arasında 307 günə infrastruktur layihəsinin icrasıdır. Bu, ən qısa müddətdə icra deməkdir. Söhbət nəhəng infrastruktur layihəsindən gedir. Azərbaycan buna necə nail olub və "Bir kəmər, bir yol" layihəsinin faydasını necə görürsünüz?***

Prezident İlham Əliyev: İnkişafımızın hədəflərindən biri regional bağlantı mərkəzinə çevrilmək idi. Çünki xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq. İlk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün biz bu sahəyə böyük sərmayə yatırmağa başladıq. Eyni zamanda, qonşularımızla da bağlantı körpüləri qurmağa başladıq. Biz mühüm tranzit ölkəsi olmaq arzusundaydıq, ancaq bunun üçün təkcə coğrafiya kifayət etmir. Hətta infrastruktur da kifayət deyil, burada digər məsələyə ehtiyac var. Bu isə qonşularla yaxşı münasibətlərdir. Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə çevrilmək olmaz. Bu isə bizim xarici siyasətimizin tərkib hissəsi idi. Prioritet qonşu ölkələrlə qarşılıqlı maraq üzərində daha güclü münasibətlər qurmaq idi.

Beləliklə, ”Bir kəmər, bir yol” layihəsinə qoşularkən bizim artıq hazır infrastrukturumuz var idi. Hazırda isə biz, nə ilə məşğuluq? İndi biz, sadəcə, texniki imkanları artırırıq. Məsələn, biz ticarət limanımızı genişləndiririk, çünki Şərqdən-Qərbə daşınan yüklərin həcminin artması yükaşırma baxımından problemlər yaradacaq. Bizim dəniz ticarət limanımız bir neçə il əvvəl açıldı. Onun ovaxtkı yükaşırma qabiliyyəti 15 milyon ton idi. Hazırda isə biz onun imkanlarını 25 milyon tona qədər çatdırırıq. Biz Xəzər dənizində daha çox gəmi tikirik. Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olduğumuza baxmayaraq, biz yeni tanker və yük gəmiləri inşa edirik ki, daha çox yük daşıya bilək. İndi biz gəmiqayırma zavodumuzu genişləndirməyi planlaşdırırıq ki, ildə 6-8 deyil, 10-20 gəmi inşa edə bilək. Həm Azərbaycanda, həm də Xəzər dənizində buna tələbat artmaqdadır.

Biz hazırda mövcud dəmir yolunu müasirləşdiririk ki, qatarların sürəti artırılsın və daha çox yüklər nəql edilsin. Biz böyük yük axınına daha yaxşı hazır olmaq üçün çox işlər görürük. Azərbaycan vasitəsilə daşınan yüklərin həcmi ildən-ilə artır. Lakin mən hesab edirəm ki, bu rəqəm bir neçə dəfə artıq ola bilər. Biz bu istiqamətdə, həmçinin çinli tərəfdaşlarımız və qonşularımızla həmin infrastruktur bağlantısının yaradılması üçün fəal işləyirik. Burada inzibati bağlantı da olmalıdır. Burada tariflərlə bağlı vahid siyasət olmalıdır. Gömrük qaydaları sahəsində daha geniş qarşılıqlı əlaqələndirmə olmalıdır ki, necə deyərlər, bu qapını daha da geniş aça bilək. Yəni, gələcəkdə ölkələrimiz arasındakı münasibətlər Azərbaycan vasitəsilə daha çox yüklərin daşınmasında vacib rol oynayacaqdır. Sizin də qeyd etdiyiniz kimi, biz bütün işləri vaxtında və qısa zamanda icra etdik. Bu gün Azərbaycanın nəqliyyat infrastrukturu artıq yüksək beynəlxalq standartlara cavab verir.

***Müxbir: Məlumdur ki, Azərbaycan "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" layihəsinin təşəbbüskarıdır. Bu, nə dərəcədə əhəmiyyətlidir?***

Prezident İlham Əliyev: Əslində, bu, ”Bir kəmər, bir yol” layihəsinin bir hissəsidir. Çünki bizə məlumdur ki, hazırkı geosiyasi vəziyyətdə Transxəzər marşrutu Mərkəzi Asiya ölkələri üçün ən əhəmiyyətli marşruta çevrilib. Dediyim kimi, xəritəyə baxanda aydın olur ki, Avropaya və əks-istiqamətdə yüklərin daşınması üçün Mərkəzi Asiya ölkələrinin seçimi o qədər də geniş deyil.

**Ardı Səh. 4**

# “Sülh müqaviləsinin imzalanmasına ən yaxın gələcəkdə nail olmaq olar”

*Prezident İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verib*

Əvvəli Səh. 3

***Müxbir: Dəniz yolu və Transsibir marşrutu da var, ancaq o, vaxt baxımından daha uzundur.***

Prezident İlham Əliyev: Bəli, bu bir səbəbdir, həmin nəqliyyat marşrutu ilə əlaqədar digər səbəb isə geosiyasi dəyişikliklər, məhdudiyyətlər və sanksiyalardır. Bu, həmin tranzit marşrutunu mürəkkəbləşdirir. Beləliklə, sual yaranır - Xəzər dənizi vasitəsilə olmasa, bəs, haradan olsun? Mərkəzi Asiya ölkələri inkişaf edir və ixracyönümlü daha çox məhsul istehsal edir. Həmçinin daha çox məhsul alır və bu baxımdan Xəzər dənizi marşrutu həyati əhəmiyyət kəsb edir. Xoşbəxtlikdən biz illər əvvəl ev tapşırığımızı yerinə yetirmişik və hər bir şey hazırdır. İndi isə bu infrastrukturu genişləndirmək asan olacaq. Həmçinin nəqliyyat infrastrukturunun genişləndirilməsinə yatırılacaq vəsait təxmin edilən yük həcminə uyğun olacaq.

Mən ötən il və bu il bütün Mərkəzi Asiya ölkələrinə səfər etmişəm və bu ölkələrin rəhbərləri Azərbaycana səfər ediblər. Bu gün bizim ikitərəfli münasibətlərimizdə daha çox dinamizm var. Birincisi, biz buna ehtiyacın olduğunu görürük. Digər tərəfdən isə bizim hər zaman gözəl münasibətlərimiz olub.

Eyni zamanda, daşımalar marşrutları mövzusu daha fəal əməkdaşlığı diktə edir. Beləliklə, əminəm ki, Xəzər dənizi ilə yükdaşımalarının illik statistikasına nəzər saldıqca biz rəqəmlərin artacağının şahidi olacağıq.

***Müxbir: Məndə çox maraqlı məlumatlar var ki, Sizinlə bölüşmək istərdim. Oradan görünür ki, Çindən Avropaya göndərilən mallar dənizlə orta hesabla 36 gün çəkir, əgər siyasi məsələlər olmasa, Transsibir marşrutu ilə 20 gün çəkir və Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edərək, Orta Dəhlizlə isə cəmi 12 gün çəkir.***

Prezident İlham Əliyev: Elədir, bəli, bu, həqiqətdir. Yeri gəlmişkən, biz bu səbəbdən bu marşrutun qurulmasına və çəkilməsinə başladıq, çünki o, mövcud deyildi. Bu, Azərbaycanın irəli sürdüyü və Türkiyə ilə Gürcüstandakı tərəfdaşlarımızın fəal dəstəyini almış yeni daşımalar yoludur, bağlantıdır və infrastrukturdur. 2017-ci ildə burada - Bakıda həmin layihənin rəsmi açılışı baş tutdu. Həmin vaxt Orta Dəhlizlə daşımalar hələ ki, prioritetlərdən biri hesab edilmirdi. Buna görə, biz lazım olduğu qədər yüklərin daşınma həcminə sərmayələr yatırdıq. Lakin hazırda biz nə ilə məşğuluq? Biz həmin yolun təkmilləşdirilməsi işlərinə artıq bir neçə ay bundan əvvəl başladıq və nəticədə, həmin marşrutla əvvəlcə nəzərdə tutulduğundan beş dəfə artıq yüklər daşına biləcək.

Biz Azərbaycandan Türkiyə və Avropa istiqamətində gedən əlavə yol olacaq Zəngəzur dəhlizi üzərində çox fəal şəkildə çalışırıq. Azərbaycan ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq başa çatdırılıb. Beləliklə, Azərbaycan ərazisindən təkcə Bakı-Tbilisi-Qars kimi bir yol keçməyəcək, o cümlədən Zəngəzur dəhlizi işə salınacaq. Bir sözlə, bütün bunlar əlavə yüklər üçün digər imkanlar açacaq. Eyni zamanda, Azərbaycan ərazisindən daşımalar, həmçinin Gürcüstanın dəniz limanından keçəcək. Biz bu sahədə müəyyən sərmayə imkanlarına böyük maraqla baxırıq. Həqiqətən, daşımalarda əməkdaşlıq bütün ölkələr üçün çox faydalı olacaq və eyni zamanda, o da vacibdir ki, bu işlər ölkələr arasında əlaqələri gücləndirəcək. Ölkələr bir-biri ilə daha sıx bağlı olacaq, inteqrasiya olacaq. Biz dəhliz boyunca bir çox istehsal sahələrini yaratmağı planlaşdırırıq və sadəcə, tranzit ölkə olmaq istəmirik. Geosiyasi baxımdan, bu, yaxşı haldır, yəni, əlavə gəlir əldə etmək olar, biz Azərbaycanda böyük sənaye zonalarını yaratmaq istəyirik. Əslində, bu istiqamətdə irəliləyirik. Hesab edirəm ki, bu ay açılmış və artıq fəaliyyətə başlamış Ələt Azad İqtisadi Zonamızda istehsalatla məşğul olmaq, həmçinin Çin şirkətləri üçün cəlbedici ola bilər. Əslində, təsəvvür etdiyinizdən də geniş fürsətdir.

***Müxbir: Siz bağlantıların, "Bir kəmər, bir yol" təşəbbüsünün mədəni aspekti haqqında danışdınız. Biz iki gün əvvəl "Muğam Klub" restoranında olduq. Gördüklərimiz mənə böyük təəssürat bağışladı. Əlbəttə ki, qədim Karvansaranı ziyarət etdik. Orada qədim İpək Yolu ilə tanış olduq. Orada sanki zaman yenidən göz qabağına gəlir və siz tarixi, insanları, ticarəti və mədəniyyətləri, ənənələri seyr edə bilirsiniz. Çin tərəfinin "Bir kəmər, bir yol" təşəbbüsünün mədəni dəyərini necə görürsünüz? Bilirəm ki, ölkənizdə qədim İpək Yolunun bərpasına hələ 1990-cı illərdən çalışırsınız.***

## *"Bakı artıq böyük idman tədbirləri üçün beynəlxalq məkana çevrilib"*

Prezident İlham Əliyev: Əlbəttə ki, birmənalı olaraq, bu, dostluğa əlavə təkan və töhfə verəcək. Qarşılıqlı fəaliyyət yaranacaq, çünki qədim İpək Yolunda yerləşən ölkələrin xüsusiyyəti, bəlkə də, oxşarlığı ondan ibarətdir ki, onlar cəmiyyətlərinin müxtəlifliyi, çoxetnik və çoxkonfessiyalı xarakteri ilə seçilir. Azərbaycan həmin müsbət ssenarinin bir hissəsidir. Buna görə, Azərbaycanın mədəni irsi, gördüyünüz kimi, dövlətimiz tərəfindən lazımınca qorunur. Bu, bizim üçün qorunmalı, saxlanılmalı və yeni nəsillərə ötürülməli sərvətdir ki, onlar da eyni münasibət bəsləsinlər. Biz mədəni irsimizi əsrlər boyu qoruyub saxlamışıq. Baxmayaraq ki, Azərbaycan uzun müddət öz dövlətçiliyindən məhrum idi. Biz müstəqil ölkə deyildik. Lakin, eyni zamanda, biz milli özünəməxsusluğumuzu, dilimizi, ədəbiyyatımızı, musiqimizi və ənənələrimizi, mədəni irsimizi qoruyub saxlamışıq. Hətta müstəqil olmadığımız vaxtlarda, bunu bacarmışıq. Beləliklə, dünya irsinin bir hissəsi olan mədəni irsimizin qorunmasını birmənalı olaraq davam etdirəcəyik. Eyni zamanda, tərəfdaşlarla bağlantı yaradan bir çox layihələr daha çox səfərlərlə, turistlərlə, ticarətlə, qarşılıqlı fəaliyyətlə nəticələnəcək. Bunun sayəsində mədəniyyətlərimiz və cəmiyyətlərimiz daha da zənginləşəcək. Bir sözlə, biz həmin məsələyə belə nöqteyi-nəzərdən baxırıq. Bəxtimiz çox gətirib ki, Azərbaycan əsrlər boyu və xüsusən də, müstəqillik dövründə, sözün əsl mənasında, etnik və dini dözümlülüyün, birgəyaşayışın yüksək standartlarını nümayiş etdirir. Azərbaycanda bütün etnik qruplar bir ailə kimi yaşayır və bu, bizim ən böyük sərvətlərimizdən biridir. Biz bunları qorumağa çalışırıq və əminəm ki, bu işin öhdəsindən gələcəyik.

***Müxbir: Atalar sözü var: Ticarət dayananda, müharibələr başlayır.***

Prezident İlham Əliyev: Elədir.

***Müxbir: Ticarət nə qədər çox olarsa, ölkə əhalisi üçün daha çox fürsətlər açılır.***

Prezident İlham Əliyev: Tamamilə doğrudur. O, sabitliyi, təhlükəsizliyi möhkəmləndirir və müəyyən dərəcədə, sözün yaxşı mənasında, qarşılıqlı bağlılığı artırır. İnsanlar, ölkələr üçün daha çox fayda olur. Bu şəraitdə, əlbəttə, sabitlik bərqərar olur.

Müxbir: Prezident Əliyev, Sizə deməliyəm ki, iki il əvvəl BBC-nin jurnalistinə verdiyiniz müsahibədən sonra Çində kifayət qədər məşhurlaşdınız. Bir çox insanlar deyirdilər ki, Qərbə münasibətdə maraqların tarazlaşdırılması üçün ölkə rəhbəri məhz bu cür addım ata bilərdi. Bu, necə baş verdi?

Prezident İlham Əliyev: Bilirsiniz, 44 günlük Vətən müharibəsi zamanı mən çox sayda müsahibələr verdim. Bu, əsasən, Qərb jurnalistlərinə verilən müsahibələr idi. Onların əksəriyyəti, deyərdim ki, çox aqressiv idi və çalışırdılar Azərbaycanı təcavüzkar kimi təsvir etsinlər. Bilirsiniz, öz ərazilərimizi azad etdikdə, ərazi bütövlüyümüz uğrunda vuruşduqda, biz digər ölkənin ərazisinə addım da atmadıq. Biz, sadəcə, üzləşdiyimiz 30 illik işğalın və etnik təmizləmənin nəticələrini aradan qaldırırdıq. Əlbəttə, əmin idim ki, videoreportaj hazırlamaq məqsədilə Azərbaycana gəlmiş və mənimlə görüşmək istəyən Qərb jurnalistləri yaxşıca hazırlaşmışlar. Münaqişənin tarixi, kimin təcavüzkar, kimin isə təcavüz qurbanı olması, nəyin baş verdiyi barədə onların bilməməsini təsəvvür etmək sadəlövhlük olardı. Lakin, eyni zamanda, onlar nəinki görüşümüz zamanı vəziyyəti təqdim etməyə çalışırdılar, - çünki Azərbaycanda olarkən çoxlu reportajlar hazırlamışdılar, - onlar çalışırdılar ki, Azərbaycanı təcavüzkar kimi qələmə versinlər. Əlbəttə, bu, tamamilə qəbuledilməz idi. Bütün bunlar Qərb mətbuatının qərəzli, qeyri-tarazlı və anti-Azərbaycan yanaşmasını nümayiş etdirdi və biz həmin reallıqda 30 il idi ki, yaşayırdıq. Bu, həqiqətdir.

***Müxbir: Bir çox insan hesab etdi ki, Culian Assanj tezisi böyük əks zərbə oldu. Bu necə fikrinizə gəldi?***

Prezident İlham Əliyev: Əslində, əgər siz kimisə nəyinsə pozulmasında ittiham etmək istəyirsinizsə, birinci, güzgüdə özünüzə baxıb görməlisiniz, sizin üzünüzdə qüsurlar varmı? Culian Assanjın başına gələnlər, tamamilə qəbuledilməzdir. Bu, söz azadlığının kobud şəkildə pozulması deməkdir. Həmin insan səfirliklərin birində illər boyu işgəncəyə məruz qalıb. Hazırda o, işgəncədədir. Mən burada mənəvi işgəncəni nəzərdə tuturam. Onun fiziki işgəncəyə məruz qalmasını bilmirəm. Bilmədiyim məsələni deyə bilmərəm. Lakin, insan bəzi mənbələrdən əldə etdiyi müəyyən məlumatı açıqladığına görə əzab-əziyyətlərlə üzləşib. Bəlkə də, o, səhv edib, yaxud qaydaları pozub. Bununla belə, Qərbdəki insanlar vəziyyəti elə təsvir edirlər ki, jurnalistlər istədiklərini edə bilər və onların hər hansı cinayət təqibindən toxunulmazlığı var və əgər siz jurnalisti həbs edirsiniz, deməli, siz diktatorsunuz. Ona görə dedim, baxın Culian Assanjın məsələsinə, görün həmin insanla siz nə etdiniz? Onda, siz kimisə bu məsələdə necə ittiham edə bilərsiniz? Həmin hadisə sizin tarixinizdə ən qara səhifədir. Siz də qeyd etdiyiniz kimi, iki ildən çox vaxt keçir və hazırda Culian Assanj haradadır? O, hələ də həbsxanadadır. Hələ də, həbsxanadadır. Kimsə onun haqqında danışır? Yox.

***Müxbir: Mən özüm səkkiz il Vaşinqtonda müxbir işləmişəm və hər iki istiqamətdə çox şeyi öyrəndim. Azərbaycan, Çin kimi qeyri-Qərb ölkələrin Qərb mətbuatında qərəzli təsviri haqqında danışdıqda, əlbəttə, Siz hesab edirsiniz ki, onlar bu ölkələrə ədalətli yanaşmırlar. Sizcə, bu, niyə baş verir? Səhv təsvirin verilməsinin arxasında duran meyarlar nədir? Yəni, qeyri-Qərb aləmini, o cümlədən Çini səhv təsvir etməyin səbəbi nədir?***

Prezident İlham Əliyev: Eyni üsulu Çinə qarşı tətbiq etmələrinin səbəbini söyləmək mənim üçün çətindir. Çox güman ki, bunun səbəbləri var. Amma, Azərbaycana gəldikdə, amillər müxtəlifdir. Əsas olmasa da, həmin amillərdən biri Birləşmiş Ştatlarda, Fransada və bəzi digər Qərb ölkələrində erməni lobbisinin böyük infrastruktura malik olmasıdır. Onlar dövri olaraq Azərbaycana hücum çəkirlər, siyasətçiləri ələ alırlar, onların cəmiyyətinə, parlamentinə, mətbuatına və hökumət orqanlarına yol tapırlar. Bütün oxları Azərbaycana tuşlayırlar və bir növ, Azərbaycanofobiya mühitini yaradırlar. Lakin, bu, yeganə səbəb deyil. Düşünürəm, əsas səbəb ondan ibarətdir ki, Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür. Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycan prioritetlərimizə və milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmur. Başqa sözlə desək, biz müstəqil davranırıq və siyasətimiz müstəqildir. Biz əlimizdə olan bütün vasitələrlə özünəməxsusluğumuzu və ləyaqətimizi müdafiə edəcəyik. Fikrimcə, bu, əsas səbəbdir ki, Azərbaycan davamlı olaraq mətbuatın hədəfindədir, dırnaqarası müstəqil QHT-lərin hücumuna məruz qalır. Hamımız bilirik ki, onlar müstəqil deyil. Kim deyə bilər ki, ”Human Rights Watch”, ”Amnesty International” və ”Freedom House” müstəqildirlər. Baxın, onlar kimdən pul alırlar və kim musiqini sifariş edir. Onda görəcəksiniz ki, onlar tamamilə asılıdırlar.

***Müxbir: Karneqi Beynəlxalq Sülh Fondu...***

Prezident İlham Əliyev: Elədir ki, var. Onlar tam asılıdır və yiyələri ilə razılaşdırmadan bir addım belə sağa, yaxud sola ata bilməzlər. Lakin, bilirsiniz, biz bu mühitdə yaşamağa öyrəşmişik. Mənim üçün Qərb mətbuatının Azərbaycan haqqında yazdığı deyil, Azərbaycan xalqının hökumətimizin siyasəti barədə düşündüyü vacibdir. İnsanlarla söhbət apardıqda, görə bilərsiniz ki, onlar hökumətimiz barədə nə düşünür, gördüyümüz işlər düzdür, yoxsa səhvdir!

Cəmiyyətimiz həmrəy olması və güclü ictimai dəstək, əlbəttə, əsasən bizim siyasətimiz, əvvəlcə işğal altında olmuş ərazilərin azad edilməsi sayəsində formalaşır. Lakin, həmçinin bu, anti-Azərbaycan təşviqatına olan reaksiyadır. Əgər Qərbdə kimsə düşünür ki, hökumət rəsmilərini təhqir etməklə, böhtan və şayiələr yaymaqla Azərbaycanda ictimai rəyə təsir göstərə bilər, bilsin: ola bilər, o, haqlıdır, lakin həmin təsir onların görmək istədiyi istiqamətdə olmayacaq. Əksinə, cəmiyyət daha da həmrəy olur, çünki biz görürük ki, bu, ədalətli deyil. Biz 30 il işğala məruz qalmışıq və Ermənistan işğalını orada pisləyən olmadı.

***Müxbir: Onlar yalnız dinc yolla nizamlamanı qeyd etdilər.***

Prezident İlham Əliyev: Düzdür. Yalnız dinc yolla nizamlama, ərazi bütövlüyünü dilə gətirmirdilər.

Ardı Səh. 5

Əvvəli Səh. 4

*Müxbir: Bu, ikili standartların jarqonudur.*

Prezident İlham Əliyev: Elədir! Bunlar ikili standartlardır və cəmiyyətimiz bunları çox yaxşı anlayır. Həmçinin bilmək vacibdir ki, söhbət təkcə bəzi jurnalistlərin müsahibəsindən getmir. Bu halda hökumətlər də var. Hazırda biz Fransa hökumətinin, əgər belə demək olarsa, çox əsassız hücumları ilə üzləşirik. Təsəvvür edirsinizmi, Fransa Ermənistanın ən böyük vəkilinə çevrilib. Yaxşı, bu, onların işidir, lakin onlar Avropada ən iri anti-Azərbaycan mənbəyinə çevriliblər. Onlar bizə hər istiqamətdə hücum çəkirlər. Onların xarici siyasi bəyanatları və rəsmilərin bəyanatları hər cür siyasi etikadan kənara çıxır. Onlar müharibə zamanı bizi elə məsələlərdə ittiham etdilər ki, biz bunları heç vaxt etməmişik və bununla bağlı, üzr belə istəmədilər. İndi isə onlar bizi öz ərazimizdə gördüyümüz işlərə görə ittiham edirlər. Baxın hələ bunu kim edir? O ölkə ki, Korsika dilinə qadağa qoyur, Korsikada öz müqəddəratını təyin etmək hərəkatını qəddarcasına boğur. Onlar Qarabağda ermənilərin "öz müqəddəratını təyin etmələrini" təşviq edirlər. Bu, necə ola bilər? Müharibə zamanı siyasi təcavüz bütün sərhədləri aşanda, dedim ki, əgər onlar "Dağlıq Qarabağ respublikasını" haradasa qurmaq istəsələr, qoy öz ərazisində qursunlar. Məsələn, çoxlu ermənilərin yaşadığı Marsel şəhərinin ətrafında qurub, "Dağlıq Qarabağ respublikasını" orada elan etsinlər, biz də tanıyaq. Bu ölkə hələ də öz müstəmləkəçilik siyasətini davam etdirir. Baxın Mayot adasına, Fransanın müstəmləkəsi. Yeni Kaledoniya, Fransanın müstəmləkəsi. Onlar hələ də insan hüquqları haqqında danışır!? Bu, siyasi riyakarlıqdır. İndi söylədiklərimi biz deyəndə isə, siz görürsünüz ki, onlar bütün mətbuatı dərhal işə salır, Azərbaycanı, onun rəhbərlərini və siyasətini təhqir etməyə, hücum çəkməyə, şayiə yaymağa başlayırlar.

*Müxbir: Ərazi bütövlüyü haqqında danışdıqda, bir çox çinlilərin qəlbinə yaxın olan, onlar üçün əziz olan məsələ var: bu, Tayvan məsələsidir. Tayvan məsələsinə kənardan müdaxilə var. Siz öncə söylədiniz ki, Çini bölmək səylərini dəstəkləmirsiniz. Bu barədə ətraflı deyə bilərsinizmi?*

Prezident İlham Əliyev: Bilirsiniz, biz Çinin ərazi bütövlüyünü, Vahid Çin və Çinin birləşməsi siyasətini hər zaman dəstəkləmişik və dəstəkləməkdə davam edirik. Bu siyasət bir neçə il əvvəl qeyd olunub, bir çox hallarda yenidən təsdiqlənib, tamamilə dəyişməz olaraq qalır və heç zaman da dəyişməyəcək. Birincisi, bu, onunla bağlıdır ki, Çin bizim üçün dost ölkədir. İkincisi, biz hər zaman beynəlxalq hüququn norma və prinsiplərini dəstəkləyirik. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək olmaz. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək istəyən ölkələr yalnız öz nüfuzunu itirəcəklər, çünki beynəlxalq hüquqda aydın şəkildə deyilir ki, ərazi bütövlüyü onun fundamental prinsipidir. Xalqların öz müqəddəratının təyin edilməsi hər hansı ölkənin ərazi bütövlüyü ilə ziddiyyət təşkil etməli deyil. Bu, beynəlxalq hüququn fundamental prinsipləridir. Buna görə, Vahid Çin siyasəti ilə bağlı mövqeyimiz tam aydındır və ümid edirəm ki, bəzi Qərb hökumətləri də bu mövqeyə uyğun davranacaqlar.

*Müxbir: Ermənistan-Azərbaycan münasibətlərinə gəldikdə, bilirik ki, atəşkəs mövcuddur, lakin vəziyyət mürəkkəb olaraq qalır. Əvvəlki hadisələrin hamısını nəzərə alaraq, cənab Prezident, Siz sülh müqaviləsi haqqında nə düşünürsünüz? Onu nə vaxt gözləmək olar? Əgər olarsa, o, necə olacaq?*

# "Sülh müqaviləsinin imzalanmasına ən yaxın gələcəkdə nail olmaq olar"

*Prezident İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verib*

Prezident İlham Əliyev: Düşünürəm ki, ona ən yaxın gələcəkdə nail olmaq olar. Nəyə görə mən bu cür düşünürəm, çünki Ermənistan çox mühüm bəyanatla çıxış etməli idi ki, onlar nəinki Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, - əslində, onlar bunu rəsmən ötən ilin oktyabrında bəyan etdilər və sonra bir neçə dəfə təsdiqlədilər, - həmçinin bu ilin mayında onlar bunu aydınlaşdırdılar, çünki biz tələb etdik ki, onlar Qarabağı Azərbaycanın hissəsi kimi tanıdıqlarını qeyd etsinlər. Onlar Azərbaycanın ərazi bütövlüyünü 86,6 min kvadratkilometr ərazidə tanıdılar. Bu əraziyə Qarabağ və Ermənistan ərazisində olan səkkiz Azərbaycan anklavı da daxildir. Bu, əslində, mühüm bəyanatdır. Bundan sonra qalan yeganə məsələ, bunu kağız üzərinə köçürmək və imzalamaqdır. İkinci Qarabağ müharibəsi bitdikdən sonra, sülh müqaviləsi ilə bağlı mövqeyimiz həmin müqavilənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmasından ibarətdir. Biz sülh müqaviləsinin əsasını təşkil etməli olan beş beynəlxalq təməl prinsipini hazırladıq. Bir neçə dəfə danışıqlar aparılıb və iyunun sonunda davam etdiriləcək. Fikir ayrılığının yeganə əsas müddəası onunla bağlı idi ki, Ermənistan Qarabağı rəsmən Azərbaycanın hissəsi kimi tanısın. Artıq dediyim kimi, bir - onlar qeyd etməlidir ki, Qarabağ Azərbaycandır və indi isə, onlar ikincini etməlidirlər: imzalamalıdırlar. Bundan sonra razılaşma əldə oluna bilər və düşünürəm ki, əgər ermənilər söylədiklərini yerinə yetirərlərsə və əgər bu, yenidən siyasi manevr deyilsə, prosesi yubatmaq cəhdləri naminə ixtira edilən hekayət deyilsə, onda biz ilin sonuna qədər sülh müqaviləsinə nail olaraq, onu imzalaya bilərik. Bu, həqiqətən mühüm geosiyasi amilə çevrilə bilər, uzunmüddətli qarşıdurmaya son qoyar, Qafqazda real sülh yaradar, bütün kommunikasiyaları açar. Həmçinin əlavə etmək istəyirəm, Azərbaycandakı erməni azlığına gəldikdə, biz artıq rəsmən bəyan etmişik ki, onların hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq. Bununla belə, Azərbaycan onlarla etnik qrupun, o cümlədən ermənilərin yaşadığı ölkədir. Bizim dini və ya etnik zəmində heç zaman hər hansı problemimiz olmayıb. Buna görə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər hər hansı digər Azərbaycan vətəndaşı qədər bərabər hüquq və təhlükəsizlik zəmanətinə malik olacaqlar. Düşünürəm ki, bu, tam şəkildə beynəlxalq hüququn normalarına uyğundur və fikrimcə, Azərbaycanın bu mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilir.

*Müxbir: Prezident Əliyev, gəlin Sizin sevdiyiniz mövzulardan birinə keçək - idman və fitnesə.*

Prezident İlham Əliyev: Yaxşı.

*Müxbir: Siz turnikdə dartındığınız videonu qoymusunuz. 60 yaşınız tamam olurdu həmin vaxt.*

Prezident İlham Əliyev: Bəli.

*Müxbir: On beş dəfə. Çox xoş təəssürat bağışladı. Daha çox da edə bilərsiniz…?*

Prezident İlham Əliyev: Əvvəllər çox edirdim. Sadəcə, indi birinci dəfə göstərdim. Gənc olduğum zaman bunu heç zaman göstərmirdim, çünki gənc insan üçün bunu çox etmək təbii haldır. Nəyə görə bunu göstərdim? İstəyirəm ki, gənc nəsil eynən bu cür etsin. Demək istəyirəm ki, 60 yaşın olsa belə, əgər pis vərdişlərin yoxdursa, idmanla müntəzəm məşğul olursansa, onda bunu bacararsan. Mənim gənc nəslə ismarışım bu idi. Əgər siz hesab edirsiniz ki, 60 yaşınız var, edə bilməzsiniz, yanılırsınız, bacararsınız. Amma ondan çox dartınmaq, bəlkə də, bacararam. Lakin bu, o qədər cəlbedici olmaz.

*Müxbir: Tam haqlısınız. Siz, həmçinin ağır atletikanı sevdiyinizi gizlətmirsiniz. Hətta, yaxın dostunuz, Prezident Ərdoğanın qarşısında hazırlıq olmadan göstərdiniz.*

Prezident İlham Əliyev: Bu, işin asan hissəsi idi. Bəli, o qədər də ağır deyildi.

Müxbir: Amma Siz bunu etdiniz. İdmana şəxsi sevginizi daha böyük ismarışa çevirmək bacarığınız təsirlidir. Elə baxaq Bakıya, onun mərkəzində F1 yarışları keçirilir. Sizdə 2020-ci ilin futbol üzrə Avropa çempionatının oyunları, 2015-ci ildə ilk Avropa Oyunları təşkil olundu. İdmana həvəsiniz barədə söyləyin, nəyə görə məhz idman?

Prezident İlham Əliyev: Birincisi, mən idmanı sevirəm. İkincisi, ömrüm boyu mən idmanla müəyyən fasilələrlə məşğul olmuşam. Əfsuslar ki, bəzən atmışam, sonra yenidən başlamışam. Gənc yaşlarımda idmanla çox fəal məşğul olurdum. Sonra dayandırırdım və yenidən başlayanda mənim üçün formanı qaytarmaq çox asan olurdu.

İkincisi, idman ictimai həyatın mühüm amilidir. İşğal dövründə idman qələbələrimiz insanların şüurunda Birinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra bir növ rəmzi kompensasiya oldu. Beləliklə, biz göstərdik ki, qalib gələ bilərik və qələbə Azərbaycanda vətənpərvərliyin çox mühüm amilinə çevrildi. Çünki idmançılarınız qalib gələndə, bayrağımız qalxanda, himnimiz çalınanda adamı böyük qürur hissləri bürüyür. Bu, gənc nəsil üçün vətənpərvər olmaqda mühüm amil idi, çünki mən aydın şəkildə anladım ki, bunsuz biz qələbə qazana bilməyəcəyik. Bəli, biz müdafiə imkanlarımıza, hərbçilərimizin təliminə böyük sərmayələr yatırdıq. Biz İkinci Qarabağ müharibəsinə hazırlaşmaq üçün çox işlər gördük. Lakin sizə deyə bilərəm ki, hazırda, iki il yarımdan sonra, Qələbəmizin əsas meyarı qələbə ruhu idi. Torpaqları azad edənlər həyatlarında heç vaxt Qarabağı görməmişdilər, çünki çox gəncdirlər. Qarabağ işğal ediləndə onlar heç anadan olmamışdılar. Beləliklə, onları bu məqsədə aparan nə idi? Qələbə ruhu, vətənpərvərlik və ləyaqət idi. İdman həm budur, həm fiziki sağlamlıq deməkdir, çünki biz istəyirik ki, cəmiyyətimiz sağlam olsun. Biz istəyirik cəmiyyətimiz fiziki baxımdan güclü olsun. Bunun üçün idman birinci yerdədir. Əlbəttə ki, yaxşı qida, pis vərdişlərin olmaması məsələsi də var. İdman bəlkə onları üstələyir. Həmçinin hazırda biz idmanın kütləviliyi üzərində çalışırıq ki, hər rayonda idman infrastrukturumuz olsun. Bunu artıq yaratmışıq. Eyni zamanda, bu, beynəlxalq nüfuz deməkdir, çünki ilk Avropa Oyunları həqiqətən Azərbaycanı Avropaya açdı. Formula 1 yarışlarını artıq yeddi dəfə keçirmişik. Xüsusən də, nəzərə alsaq ki, o, şəhər küçələrində baş verir. Bu, Bakını heç vaxt görməyən üçün şəhərimizin təqdimatıdır. Formula 1-in auditoriyası 500 milyondur. İlk Formula 1 yarışlarından sonra turizm 20 faiz artdı və COVID-dən əvvəl hər il on - on beş faiz artım var idi. Yarışlar sayəsində çoxlu xarici turist gəldi. Ölkəyə çox xarici valyuta daxil oldu. Bir çox amillər hər bir hökumətin idmanın inkişafına böyük diqqət yetirməli olduğunu göstərir.

*Müxbir: 2020-ci ilin futbol üzvə Avropa çempionatını çox yaxşı xatırlayıram.*

Prezident İlham Əliyev: Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Bəli, Bakı artıq böyük idman tədbirləri üçün beynəlxalq məkana çevrilib. Ölkəmizdə, həmçinin 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirildi. Təsəvvür edin, 2015-ci ildə ilk Avropa Oyunları və 2017-ci ildə İslam Həmrəyliyi Oyunları bir şəhərdə cəmi iki il ərzində keçirilib. Bu, bir daha Azərbaycanı idman ölkəsi kimi nümayiş etdirir. Avropa ilə Asiyanın kəsişməsində yerləşən ölkəmiz müsəlman aləminin, eyni zamanda, Avropanın bir hissəsidir. Ölkəmizin yerləşməsi çox unikaldır. Ölkəmizin siyasəti, cəmiyyətin statusu bütün bunların təzahürüdür.

*Müxbir: Prezident Əliyev, Hancouda Asiya Oyunları yaxınlaşır və Çinin Çendu şəhərində Dünya Universitet Oyunları gözlənilir. İdmançılara və iştirakçılara nə deyərdiniz? Çində keçiriləcək həmin oyunlardan gözləntiləriniz?*

Prezident İlham Əliyev: Mən yalnız uğurlar arzulayıram. Əminəm ki, oyunlar mümkün ən yüksək səviyyədə təşkil olunacaq. Çində idman tədbirlərinin necə təşkil edildiyinə bələdəm. Mən Pekində keçirilmiş Olimpiya Oyunlarında oldum, 2008-ci ildə gözəl ölkənizdə bir neçə gün keçirdim. Yəqin bilirsiniz, biz Asiya Oyunlarında iştirak etmirik, lakin Dünya Universitet Oyunlarında 150-dən artıq atletlə böyük komanda ilə iştirak edəcəyik. Onların sayı heç zaman olmadığı qədər bir neçə dəfə çox olacaq. İdmançılara qələbə, təşkilatçılara uğurlar, Çin xalqına bu oyunlarda sevinc arzu edirəm.

*Müxbir: Son olaraq, Azərbaycan sıravi çinlilərə görə uzaq, lakin sirli ölkədir. Mən burada ölkə Prezidenti ilə əyləşmişəm. İcazə verin soruşum: Siz proqramımızın çinli tamaşaçılarına söyləyə bilərsinizmi nəyə görə onlar Azərbaycanı növbəti turizm məkanı kimi seçməlidirlər?*

Prezident İlham Əliyev: Bilirsiniz, birincisi, insanlarımız çox mehriban və qonaqpərvərdirlər. İkincisi, bizim çox müasir hotel infrastrukturumuz var. Rəngarəng təbiətimiz var. Ölkədə doqquz iqlim qurşağı var. Ölkənin ərazisi o qədər böyük deyil, siz qatarla, avtomobillə və yaxud ən uzağı təyyarə ilə asanca qət edə bilərsiniz. Yol infrastrukturu ən yaxşılar sırasındadır. Mətbəx, fikrimcə, ən yaxşılar sırasındadır.

*Müxbir: Biz çoxlu kabab yedik.*

Prezident İlham Əliyev: Hava çox yaxşıdır. Dağlarda xizək sürə bilərsiniz. Xəzər dənizində üzə bilərsiniz. Velosipedlə dağlara çıxmaq, palçıq vulkanlarını görmək, Qarabağın dağlarına və meşələrinə getmək olar. Göl və çaylarımız var. Həmçinin düşünürəm ki, çinli turistlər görəcəklər ki, Azərbaycan xalqının Çinə böyük rəğbəti var. Onlar ölkənizi tanıyır, dost olduğumuzu bilirlər. Ona görə, çinlilər özlərini öz evindəki kimi hiss edəcəklər.

*Müxbir: Prezident Əliyev, ölkənizdə bizi qəbul etdiyinizə görə bir daha çox sağ olun. Bu müsahibəyə görə minnətdarıq.*

Prezident İlham Əliyev: Sağ olun.

# YAP Mərkəzi Aparatının rəhbəri Kamboca Krallığında parlament seçkilərini müşahidə edib

***Xəbər verildiyi kimi, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) nümayəndə heyətinin üzvləri - Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov və YAP üzvü, "Millennium Tourism & Congress DMC"nin həmtəsisçisi və baş icraçı direktoru, ICAPP Biznes Şurasının üzvü Ruslan Quliyev parlament seçkilərini müşahidə etmək məqsədilə Kamboca Krallığına səfər ediblər.***

Səfər çərçivəsində Yeni Azərbaycan Partiyasının nümayəndələri bir sıra görüşlərdə və seçki prosesinin müşahidəsində iştirak ediblər. İyulun 22-də Kamboca Krallığının Baş naziri, Kamboca Xalq Partiyasının prezidenti Hun Sen ICAPP missiyasının üzvlərini Sülh Sarayında qəbul edib. Görüş zamanı Baş nazir Hun Sen qonaqlara Kambocanın demokratik inkişaf yolundan bəhs edib, müşahidə missiyasına fəaliyyətində uğurlar arzulayıb.









Həmin gün ICAPP missiyasının üzvləri ilə FUNCİNPEC Partiyasının prezidenti, kral ailəsinin üzvü Norodom Çakravut və "Grassroots" Demokratik Partiyasının prezidenti Yeng Virak arasında da görüşlər keçirilib. Görüşlərdə hər iki partiyanın seçki platforması haqqında ətraflı məlumat verilib, müşahidəçilərin sualları cavablandırılıb.

Günün sonunda nümayəndələr Baş nazirin müavini, Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Prak Sokhonnun adından verilən şam yeməyinə qatılıblar.

İyulun 23-də ICAPP missiyasının üzvləri paytaxt Pnompendəki bir sıra seçki məntəqələrində səsvermənin gedişatını və səslərin sayılmasını müşahidə ediblər. Prosesin başa çatmasından sonra ICAPP missiyasının müşahidələrin nəticələrini əks etdirən bəyanatı hazırlanıb.

İyulun 24-də keçirilmiş mətbuat konfransında ICAPP-ın baş katibi Ahn Myung-soo müşahidənin nəticələri barədə ətraflı məlumat verib, ICAPP-ın yekun bəyanatı səsləndirilib. Qeyd olunub ki, aparılan müşahidələr parlament seçkilərinin şəffaf, ədalətli və rəqabətli qaydada, demokratiya prinsipləri əsasında keçirildiyini təsdiq edir. Sonra mətbuat nümayəndələrinin sualları cavablandırılıb. ICAPP nümayəndə heyətinin Kambocaya səfəri iyulun 24-də başa çatıb.



# Gənclər peşə bacarıqlarına yiyələnirlər

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Milli Ordumuzun Vətən Müharibəsində qələbəsi Zəfərimiz olaraq tarixə yazıldı. Azərbaycan tamamilə yeni bir dövrə qədəm qoyub. Biz artıq işğaldan azad edilmiş torpaqlara qayıdırıq və həmin yerlərdə yeni bir həyat başlayıb. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərimiz dağıdılmış, tarixi dini mədəniyyət ocaqlarımız xarabazarlığa çevrilmişdir. İşğal altında yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalareyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib.

Bu gün 30 ilə yaxın işğal altında olan torpaqlarımızda abadlıq-quruculuq işləri vüsət alıb. Hazırda qarşıda dayanan ən mühüm vəzifələrdən biri də işğaldan azad olunan ərazilərdə təhsil ocaqlarının tikintisidir. işğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Bu gün ümumtəhsil orta məktəblərilə yanaşı, müasir çağırışlara cavab olaraq peşə təhsili sisteminin müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanda peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bu sahədə peşəkar tədris prosesinin qurulması, əmək bazarının, o cümlədən işəgötürənlərin tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunması qarşıda duran əsas vəzifələrdən biridir. Hazırda Azərbaycanda 98 peşə təhsil müəssisəsi var. Peşə təhsil mərkəzlərinin sayı isə 14-dür. Ölkəmizdə 120 ixtisas üzrə 23 min 600 tələbə peşə təhsili alır. Son üç ildə peşə qəbulu üzrə göstəricilər 30 faiz artaraq, keçən il tələbələrin sayı 19 mini ötüb. Bundan başqa, 2022-2023-cü tədris ilində 5 regionda fəaliyyət göstərən 8 peşə təhsil müəssisəsində yüksək texniki peşə təhsil səviyyəsi üzrə də tələbə qəbulu aparılıb. Hazırda respublikada 1466 tələbə yüksək texniki peşə təhsili alır. Bu təhsil səviyyəsi üzrə tələbələrin sayının 2026-cı ilə qədər 9200-ə çatdırılması planlaşdırılır.



## CƏLİLABADDA DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİ İSTİFADƏYƏ VERİLİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 20-də Cəlilabad rayonuna səfəri çərçivəsində Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib. Ölkəmizdə əmək bazarının tələblərinə uyğun kadr hazırlığında peşə təhsilinin rolu artdığı bir zamanda bu sahəyə göstərilən diqqət həm də müasir infrastrukturun formalaşdırılması ilə müşayiət olunur. Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi də regional inkişaf proqramından irəli gələrək bölgədə gənclərin peşə bacarıqlarına yiyələnməsinə yeni imkanlar yaradacaq. Ən müasir infrastruktur, maddi-texniki baza ilə təchiz olunan mərkəzin ərazisində 25 sinif otağı, 3 laboratoriya, 13 emalatxana, informatika kabineti, STEAM Mərkəzi, praktiki məşğələ otağı, kitabxana, 252 yerlik akt zalı, 128 yerlik yeməkxana, idman zalları və meydançaları, avtotəmir binası, maldarlıq ferması və digər köməkçi binalar yerləşir. Peşə Təhsil Mərkəzində qənnadıçı, şirniyyatçı, dərzi, kompüterlərin təmiri və xidməti üzrə texnik, mühasibat uçotu, qrafik dizayner, veb-dizayn və proqram təminatı, çilingər-santexnik, geniş profilli traktorçu-maşinist, elektrik montyoru, bərbər-vizajist-manikürçü, avtomobillərin təmiri çilingəri, avtomobil sürücüsü, mebel ustası istiqamətləri üzrə mütəxəssis hazırlığı aparılacaq. Eyni zamanda, kənd təsərrüfatı mütəxəssislərinə artan tələbatı nəzərə alaraq bu sahə üzrə tədrisə xüsusi diqqət yetirilib.

## PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QURULMASI YOL XƏRİTƏSİNDƏ QARŞIYA QOYULAN VƏZİFƏLƏRDƏNDİR

Onu da bildirək ki, Lənkəran Peşə Liseyi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün binalar tikilir. Mingəçevir Peşə Təhsil Mərkəzinin binasının tikintisi isə başlamaq üzrədir. Eləcə də Füzuli Peşə Liseyi, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Tovuz, Qax və Quba Peşə liseylərinin binalarının layihələndirilməsi aparılır. Qarabağda Kəlbəcər və Laçın peşə məktəblərinin tikintisi planlaşdırılır. Böyük Qayıdış Proqramı çərçivəsində ümumilikdə 8 peşə təhsil müəssisəsi tikilib istifadəyə veriləcək. Göründüyü kmi, son dövrlər paytaxt Bakı ilə yanaşı, bölgələrdə, işğaldan azad olunan ərazilərimizdə də yeni peşə təhsili müəssisələri qurulur. Prezident İlham Əliyevin 2016-cı il aprelin 20-də imzaladığı Fərmanla Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması ölkəmizdə peşə təhsilinin səmərəliliyinin artırılması və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanması baxımından mühüm addım oldu.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qlobal Media Forum fonunda
# ERMƏNİ CƏMİYYƏTİNDƏ REZONANS




Sağalacağına ümid etməyən xəstələrin özlərini təcrid etmələri, hər şeyi inkar etmələri, qəzəb, nifrət hislərini cilovlamaması, depressiyaya düşmələri kimi emosyanal vəziyyətləri misalında erməni cəmiyyəti hələ də çabalamaqda və bununla da öz vəziyyətini ağırlaşdırmaqdadır. Halbuki, 44 günlük müharibədə rüsvayçı məğlubiyyətlərindən sonra yeni reallığı, Azərbaycanın yaratdığı reallığı ermənilər qəbul edə bilsəydilər, həmin o emosyanal vəziyyətdən də, ağırlaşmaqda olan durumdan da yaxa qurtara bilərdilər. Amma görünən odur ki, xəstə və ağır emosyanal durumda olan həmin cəmiyyət hələ də nə sağalmaq niyyətindədir, nə də sağalmaları üçün öz içlərindəkilər tərəfindən imkan belə verilmir ki, "dənizdən dənizə", "miatsum" və digər çoxsaylı axmaq miflərdən yaxa qurtarsınlar, reallıqları görsünlər, barışsınlar, buna uyğun da müvafiq davranış sərgiləsinlər və həyatlarını qursunlar.

Guya erməni əsgərlərinin "məğlubedilməzliyi" barədə tarixin atası adlandırılan Heredotdan bu yana az qala bütün tarixçilərdən uydurma sitatlar gətirən, boş-boşuna bunları təkrarlamaqdan yorulmayanlar 44 günlük müharibədə qarşılaşdıqları rüsvayçı məğlubiyyətdən sonra da abır-həya etmədilərsə, deməli, ya erməni cəmiyyəti özü sağalmaq fikrində deyil, ya da həmin cəmiyyətin sağalması mümkünsüzdür və deyəsən, həqiqətən də həmin cəmiyyət sağalmaz xəstəliyə düçardır. Əks halda, ən azından, həmin o dırnaqarası "məğlubedilməzlər" döyüş meydanında Azərbaycan əsgərinin qarsından acizanə şəkildə qaçmalarından, məğlub olduqlarını təsdiq edən kapitulyasiya sənədinin imzalanmasından utanar, dərs alardılar və bir də belə axmaqcasına sayıqlamazdılar. Müşahidə olunan isə tamamilə fərqlidir və bu "xəstələr" özlərini elə aparırlar ki, guya bütün dünyaya meydan oxumaq əzmindədirlər, özü də rüsvayçı məğlubiyyətləri fonunda. Bunun da səbəbi erməni cəmiyyətinin təbliğat maşınının axmaq, həqiqətdən uzaq olan mifləri dövriyyəyə buraxması, həmin cəmiyyətin də buna inanmasıdır. İndi də işğaldan azad edilmiş, sürətlə canlanan Şuşada Qlobal Media Forumunun keçirildiyi vaxt yenə də həmin o yalanları, mifləri yayan təbliğat maşını tam gücü ilə işə salınıb. Çünki 49 ölkədən 150 xarici qonağın, o cümlədən 34 ölkədən olan dövlət xəbər agentliklərinin, 12 beynəlxalq təşkilatın və media strukturlarının nümayəndələrinin iştirak etdiyi həmin tədbir erməni cəmiyyətinin yuxusunu ərşə çəkib.

Ermənilər çox yaxşı bilirlər ki, dünyanın hər yerindən olan ekspertlər üçün Ermənistan deyil, Cənubi Qafqazın aparıcı iqtisadi və siyasi mərkəzi olan Azərbaycan cəlbedicidir və buna görə də onların kürkünə birə düşüb. İşğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində artıq görülən və davam etdirilən işlərin nəhəng tempini öz gözləri ilə görən genişmiqyaslı media forum iştirakçılarının bundan sonra erməni yalanlarına qulaq asması belə inandırıcı deyil və bu səbəbdən də yenə ermənilər təbliğat maşınına əl atırlar. Bu isə onu deməyə əsas verir ki, Şuşada keçirilən genişmiqyaslı media forumu erməni cəmiyyətini əməlli-başlı silkələyib və hətta həmin cəmiyyətdə rezonans da doğurub. Belə də olmalı idi. Çünki 44 günlük müharibədə əldə etdiyimiz mükəmməl qələbədən sonra tikilmiş binalar, istifadəyə verilən Füzuli və Zəngilan beynəlxalq hava limanları, müasir çoxzolaqlı yollar, tunellər, rahat həyat üçün lazım olan bütün infrastruktur Azərbaycanla Ermənistan arasında fərqi görmək üçün kifayətdir və genişmiqyaslı media forum iştirakçılarının da həmin fərqi görmələri yalan təbliğat maşınının işə salınmasından başqa heç nəyə gücü çatmayan erməni cəmiyyəti üçün ağrıdıcı oldu.

Şuşada keçirilən Qlobal Media Forumunun iştirakçılarının məhz zəmanəmizin ən parlaq siyasi xadimlərindən biri olan Azərbaycan Prezidenti cənab İlham Əliyevlə birbaşa ünsiyyət qurmaq imkanı əldə etməsi, bir neçə dili mükəmməl bilən, jurnalistlərin istənilən sualına dərin, ətraflı cavab verməyi bacaran, istənilən media üçün maraqlı həmsöhbət sayılan ölkə rəhbərimizin də çıxışı, ifadələri erməniləri qıcıqlandırmaya bilməzdi. Çünki onların belə imkan və bacarıqlara sahib olan dövlət rəhbərləri də yoxdur, deyiləcək sözləri də, imkan və potensialları da. Hər dəfə çaşqın halda suallara baş-ayaq cavab verən, hər dəfə də gülüş hədəfinə çevrilən erməni baş naziri Nikol Paşinyan heç bir forum iştirakçısının maraq dairəsində ola bilməz və ondan hansısa bir fikri alıb, bu fikrinə görə də ona yetərincə gülmək üçün İrəvana getmək heç bir forum iştirakçısına lazım deyi. Hansısa forum iştirakçısı erməni baş nazirinə bir də təkrarən gülmək istəsə, onun çıxışlarına təkrarən qulaq asa bilər və bunun üçün də Ermənistana səfər etməyə ehtiyac qalmır. Məsələ burasındadır ki, bu həqiqəti bilən təkcə biz deyilik və bunu bilən ermənilərin indi əldən-ayaqdan getmələri, sıxıntıları, Ermənistanda müşahidə edilən rezonans tamamilə başadüşüləndir. Başadüşülən odur ki, bizim ölkəmizlə, Azərbaycanla Ermənistan arasındakı fərqi görən erməni cəmiyyətinin silkələnməsi, yenə də öz yalan təbliğat maşınlarına əl atmaları mövcud reallıqdan, ölkəmizin dəfələrlə, hətta müqaisəyə gəlməz dərəcədə üstün olmasından isterik hal keçirmələri fonunda bütün bunlar müşahidə edilir.

Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın, o cümlədən Qarabağ iqtisadi rayonunun ərazi bütövlüyünü tanıdığını bəyan etməsinə erməni cəmiyyəti məhəl qoymadan öz bildiyini edirsə, hətta baş nazirlərinin dediklərinin heç nə olduğunu bildirərək, bəzi erməni başbilənləri olmayan ağıllarına gələni ortaya atırlarsa, niyə də erməni cəmiyyətində rezonans müşahidə edilməsin? Şuşadan, Cıdır düzündən Xankəndi ovuc içi kimi qörünürsə, Şuşada keçirilən Qlobal Media Forumunun bütün əcnəbi iştirakçıları Xankəndinin işıqlarını, orada elektrik enerjisinin olduğunu, yük maşınlarının, minik avtomobillərinin hərəkətini öz gözləri ilə görmək imkanı əldə edirlərsə, ermənilərin kürkünə niyə də birə düşməsin? Axı onlar bir qədər öncə yalan təbliğat maşınlarını işə salıb dırnaqarası "humanitar böhran" deyə bar-bar bağırırdılar və indi əcnəbi tədbir iştirakçılarının gördükləri bunun əksini düşünməyə vadar edir. Təbii ki, erməni jurnalist təşkilatlarının Şuşada keçirilən Qlobal Media Forumunda iştirak edən media nümayəndələrinə isterik müraciəti də bu baxımdan anlaşılandır, amma etiraf etmək lazımdır ki, bu da olduqca gülünc və absurddur. Bu müraciət ən yaxşı halda, paxıllığın təzahürü kimi qiymətləndirilə bilər.

Çox güman ki, erməni təbliğat maşınını işə salanlar, Şuşada keçirilən Qlobal Media Forumunda iştirak edən media nümayəndələrinə isterik müraciət edənlər erməni vandalların, separatçıların Xocalıda və digər yerlərdə törətdikləri vəhşikləri, Ermənistan tərəfinin Azərbaycana məxsus torpaqların 20 faizini əsrin üçdə birinə yaxın müddət ərzində işğal altında saxladığını, ermənilərin həmin torpaqlardan qeyd-şərtsiz çıxmalarını tələb edən BMT-nin dörd qətnaməsinə işğalçı ölkənin onillər boyu məhəl qoymamasını, 44 günlük müharibə dönəmində Gəncəni, Bərdəni hədəf edərək, dinc əhalinin məskunlaşdığı ərazilərin özləri tərəfindən atəşə tutulmasını guya bilmirlər. Amma dünya ictimaiyyəti, ələlxüsus da sözügedən forum iştirakçıları bunları yaxşı bilirlər və onların həyasızlıqla etdiləri müraciət kimsənin diqqətini artıq heç bir şəkildə cəlb edə də bilməz. Diqqəti cəlb edən yalnız odur ki, məhz Şuşada keçirilən Qlobal Media Forumuna görə erməni cəmiyyəti yenə də isterik haldadır və həmin cəmiyyətdə buna görə də rezonans yaranıb. Bu rezonans, onların hər şeyi inkar etmələrində, qəzəb, nifrət duyğularında, depressiyaya düşmələri kimi emosyanal vəziyyətlərə düşmələrində bir daha özünü biruzə verir. Həmin emosyanal vəziyyət isə sağalacağına ümid etməyən xəstə misalında erməni cəmiyyətinin hər şeyi inkar etməsi, qəzəbini, nifrətini biruzə verməsi, deoressiyaya düşməsi kimi təzahürlərdə bir daha öz təsdiqini tapır, hansıki bu, onların vəziyyətini daha da ağırlaşdırır və çətinləşdirir. Hər halda, "xəstə" durumda olan bir cəmiyyət üçün bunun əksini proqnozlaşdırmaq mümkün də deyil. Həm də, Azərbaycanın yaratdığı reallığı, mövcud reallığı qəbul etməyən cəmiyyətin nə emosyanal vəziyyətdən, nə də ağır durumdan çıxma, yaxa qurtarma şansı haqqında danışmağa dəyməz və görünür, "dənizdən dənizə", eləcə də "miatsum" kimi axmaq miflərdən əl çəkməyən cəmiyyət sağalmaq niyyətində deyil və belə bir cəmiyyətdə hələ çox isterik hal və rezonans müşahidə olunacaq.

***İnam Hacıyev***

# Şuşa Qlobal Media Forumu: Gələcək üçün ideya və istiqamət



Şuşa Qlobal Media Forumunda Azərbaycan Prezidentinin iştirakı, çıxışı, xarici və yerli jurnalistlərin verdiyi sualların cavablandırılması dünyanın müzakirə etdiyi mövzulardandır. Azərbaycan Prezidenti demək olar ki, heç bir sualı cavabsız qoymadı, hər birinə aydınlıq gətirdi, həm də verilən sualın dilinə uyğuncavab verildi. Adətən dövlət başçıları konkret sualları cavablandırır, digər sualların isə üstündən ustalıqla yayınırlar. Amma Azərbaycan Prezidenti dünyanın tanınmış media orqanlarını təmsil edən jurnalistlərə hər cür imkan yaratdı ki, qaranlıq qalan hər bir suala aydınlıq gətirilsin. Bütün bunlar dövlət başçısının hazırlığından xəbər verir, həm də görülmüş və görüləcək işlərdə Azərbaycanın haqlı tərəf olduğuna, eyni zamanda bütün bunların şəffaflıq şəraitində baş verdiyinə bir işarə idi. Yəni biz haqlı tərəfik və bütün sualların cavabı da obyektivliklə uzlaşır.

Qəhrəman Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edib. Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü münasibətilə keçirilən Foruma 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumunun qatılması təsadüfi sayıla bilməzdi. İlk dəfə idi ki, dünyanın aparıcı media, jurnalist təşkilatlarının rəhbərləri, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertlər, tanınmış jurnalistlər Şuşada bir araya gəlmişdi. Prezident İlham Əliyevin Forumda çıxışı zamanı toxunduğu məsələlər, həmçinin regionda baş verən proseslər, Azərbaycan-Ermənistan münasibətlərin normallaşdırılması ilə bağlı fikirləri önəmli idi. Dövlət başçısının Forumdakı çıxışı, iştirakçıların çoxsaylı suallarına cavabı bir daha tarixi həqiqətlərimizin, postmünaqişə dövrünün reallıqlarının, müasir dövrün çağırışlarının və onların düzgün cavablandırılması yollarının təqdimatı oldu. İlham Əliyev regionun gələcəyi ilə bağlı hədəfləri göstərdi, strateji inkişaf istiqamətlərini müəyyənləşdirdi, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi məsələlərinin ön planda dayandığını bildirdi. Xüsusi olaraq qeyd edildi ki, Ermənistanla sülh müqaviləsinin imzalanmasına nail olsaq, Cənubi Qafqazda vəziyyət sağlamlaşacaq. Münasibətlərin normallaşması həm Azərbaycan, həm də Ermənistan iqtisadiyyatı üçün daha genişmiqyaslı perspektivlər açır. Prezident İlham Əliyev Şuşa Qlobal Media Forumunda Azərbaycanın hazırkı inkişaf modelini dünyaya bir daha təqdim etdi.

Qeyd edək ki, sual-cavab formatında keçirilən Forum tarixi həqiqətlərə işıq salaraq ölkəmiz barədə dolğun məlumatın əldə edilməsində zəngin mənbə olacaq. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, forum iştirakçıları üç saata yaxın davam edən müzakirələr sayəsində ölkələrinə çox yaxşı nəticələrlə qayıdacaq.

İlham Əliyevin söylədiyi hər bir fikir, gündəmə gətirdiyi hər bir məsələ, irəli sürdüyü təklif gələcək üçün bir ideya, istiqamətdir. Bütün dövrlər üçün informasiya mübarizəsinin vacibliyini nəzərə alsaq belə tədbirlərin, daha dəqiq desək, beynəlxalq miqyas alan forumların keçirilməsi mütləqdir. Dövlət başçısı İlham Əliyevin bu forumun müntəzəm olaraq keçirilməsini və buna birinci Şuşa Qlobal Media Forumu adının verilməsini təklif etməsi də bu məqsədə xidmət edir.

Qətiyyətlə demək olar ki, Şuşa Forumu Azərbaycanın hazırkı inkişaf modelinin dünyaya təqdimatında öz sözünü deyəcək. Tədbirdə dövlət başçısı İlham Əliyev Azərbaycanın iqtisadi imkanlarından, sülh və yeni əməkdaşlıq çağırışlarından, hazırkı dövrün əsas hədəfləri olan "Böyük Qayıdış" proqramının uğurlu icrasından və hərbi gücümüzün artırılmasının prioritetliyindən geniş bəhs etdi. Bu məqam da xüsusi vurğulandı ki, Azərbaycanın tarixi Zəfərinin yaratdığı reallıqlar dünya gücləri tərəfindən qəbul olunur. İkinci Qarabağ müharibəsi başa çatandan bu günədək təxminən üç il keçib. Getdikcə daha çox sayda bəyanatlar eşidilir ki, Qarabağ Azərbaycanın ərazisidir. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, işğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı.

Dövlət başçısının Forumdakı çıxışı özündə mühüm mesajları, çağırışları ehtiva edir. Hazırda danışıqlar masasında əsas məsələlərdən biri Ermənistanın rəsmi olaraq Azərbaycana qarşı ərazi iddialarından əl çəkməsidir. Ermənilər bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, digər tərəfdən də deyirlər ki, Qarabağdakı erməni icması da sülh danışıqlarına hər hansı bir şəkildə daxil edilməlidir. Bu məsələ mümkünsüzdür. Cənab İlham Əliyevin "Ermənistan Qarabağda yaşayan erməni əhalisinin hüquqları haqqında danışırsa, biz Zəngəzurda və Göyçədə, İrəvanda azərbaycanlıların hüquqları haqqında danışmalıyıq və bu, qarşılıqlı şəkildə olmalıdır" çağırışı qarşı tərəfi ciddi düşündürməlidir".

## Azərbaycan Transxəzər boru kəmərinin əleyhinə deyil

Şuşa Qlobal Media Forumu öz işini başa çatdırsa da müzakirə edilən məsələlər, ən əsası dövlət başçısı İlham Əliyevin üç saata yaxın yerli və xarici media nümayəndələrinin suallarını cavablandırarkən Azərbaycanın, regionun gələcəyi, həmçinin dəyişən dünyada baş verən hadisələrlə bağlı söylədiyi fikirlər ölkə və dünya mətbuatında geniş şərh olunmaqdadır. Prezident İlham Əliyevin çıxışının mahiyyətində daha çox gələcəklə bağlı hədəflər öz əksini tapıb. Dövlət başçısı Azərbaycanın gələcəyi ilə bağlı fikirlərini belə ifadə etdi ki, prinsip etibarilə strateji inkişaf istiqamətləri bir çox illər bundan əvvəl müəyyən edilib. Yeganə məqam odur ki, həyat öz dəyişikliklərini əlavə edir və dəyişən reallıqları planlarımıza inteqrasiya etməli oluruq. İşğal altındakı ərazilərin azad olunmasından sonra sosial-iqtisadi məsələlər ön planda dayanır. Çünki Azərbaycanda siyasi proseslər düzgün istiqamətdə gedir. Cəmiyyətdə gələcəyimizin əsas məsələləri üzrə həmrəylik var. Birinci planda, dayanıqlı inkişaf məsələləri dayanır. İstənilən şəraitdə və vəziyyətdə iqtisadiyyatın dayanıqlı olmasını təmin etməliyik. Valyuta ehtiyatlarımızı artırırıq, idarəetmə sistemini təkmilləşdiririk. Bütün bunlar əlavə imkanlar qazandırır.

Hazırkı dövrün əsas çağırışı olan Ermənistanla münasibətlərin tənzimlənməsinə gəldikdə isə dövlət başçısı bildirib ki, sülh müqaviləsinin imzalanmasına nail olsaq, Cənubi Qafqazda vəziyyət sağlamlaşacaq və bu bölgə yüksək risk zonasından çıxmış olacaq. İnvestorlar, ilk növbədə, potensial və mümkün riskləri nəzərə alırlar. Ermənistanla münasibətlərin tənzimlənməsi bu sualı gündəmdən çıxaracaq. Münasibətlərin normallaşması həm Azərbaycan, həm də Ermənistan iqtisadiyyatı üçün daha genişmiqyaslı planların gerçəkləşdirilməsinə imkan verəcək. Təbii ki, burada Qarabağın və Şərqi Zəngəzurun malik olduğu potensial da nəzərdə tutulur. Hazırda bərpa olunan enerji mənbələrinə investisiyaların yatırılmasının prioritetliyini nəzərə alsaq, işğaldan azad edilmiş ərazilərimizin bu sahədə zəngin potensiala malik olduğu inkaredilməzdir.

Prezident İlham Əliyev Şuşada keçirilən Media Forumunda çıxışı zamanı deyib ki, Azərbaycan qazının tədarük coğrafiyası genişlənir. O, 2023-cü ilin sonuna kimi daha iki Avropa ölkəsinin idxalçılar siyahısına qoşulacağına ümid etdiyini bildirib. Türkmənistan Avropa İttifaqı ilə əməkdaşlığa qərar verərsə və Transxəzər boru kəmərinin tikintisi ilə bağlı razılığa gələrsə, bu siyahı daha da genişlənə bilər. Azərbaycan qazı da Şərqə - Pakistana gedəcək. İslamabad və Bakı arasında saziş imzalanacaq.

Bakı və İslamabad Azərbaycanın mayeləşdirilmiş təbii qazının (LNG) ilk dəfə Pakistana gedəcəyi tarixi hadisəni qeyd edir. Prezident İlham Əliyev və Pakistanın Baş naziri Şahbaz Şərif arasında ilkin razılaşmaya əsasən, çatdırılmalar hər ay tankerlər tərəfindən güzəştli qiymətlərlə həyata keçiriləcək. İyunun əvvəlində Şahbaz Şərif Bakıda səfərdə olub. Pakistanın neft və qaz naziri Musadiq Malik Pakistan mətbuatına bildirib ki, İslamabad Azərbaycandan 12 LNG tankeri alacaq. Bu, qış mövsümündə ölkədə qaz qıtlığı probleminin həllinə kömək edəcək.

Azərbaycan 2023-cü ildə 24,5 milyard kubmetr ixrac etməyi planlaşdırır ki, bunun da 12 milyard kubmetri Avropaya çatdırılacaqü. Macarıstan və Slovakiya Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Rumıniya kimi Azərbaycan qazının artıq daimi alıcılarına əlavə olunacaq. Albaniya ilə də danışıqlar aparılır. "Azərbaycan bu ölkənin 700 milyon kubmetr qaza olan tələbatını tam ödəməyə hazırdır. Lakin Albaniyada yerli qaz paylama sisteminin olmaması səbəbindən çətinlik var. Hazırda onun tikintisinin mümkünlüyü məsələsi müzakirə olunur.

Xatırladaq ki, Azərbaycan təbii qazı Cənub Qaz Dəhlizi və TANAP (Trans-Adriatik Boru Kəməri) vasitəsilə Avropaya nəql olunur. Prezident İlham Əliyev Avropa ölkələrində qaz hasilatını və satışını artırmaq üçün TANAP-ın genişləndirilməsi planlarını açıqlayıb. Bundan əvvəl o, həmçinin qeyd edib ki, Azərbaycanın Avropaya qaz tədarükünü 2027-ci ilə qədər ən azı 20 milyard kubmetrə çatdırmaq potensialı var. İlham Əliyev Budapeştdə Macarıstanın Baş naziri Viktor Orbanla görüşündə Azərbaycanın ən azı 100 il Avropa üçün etibarlı qaz tərəfdaşı olaraq qala biləcəyi fikrini bildirib, bunun üçün lazımi resurslar və siyasi iradə var.

Qonşu Türkmənistan da uzun illərdir ki, öz karbohidrogenlərini Avropa bazarına çatdırmaq imkanlarını nəzərdən keçirir. Türkmənistan uzun illər əvvəl Transxəzər boru kəmərini tikmək niyyətini bəyan etmişdi. Türkmənistan və Azərbaycan arasında Xəzərdə Kəpəz (Sərdar) "Dostluq" karbohidrogen yatağının birgə kəşfiyyatı, işlənməsi və işlənməsi haqqında Anlaşma Memorandumunun imzalanmasından sonra konkret addımlar atılmağa başlanılıb.

Prezident İlham Əliyev vurğulayıb ki, "Trans-Əfqan kəmərinin tikintisinin təşəbbüskarı olmaq və ona sərmayə qoymaq bizim işimiz deyil". Azərbaycan rəhbəri qeyd edib ki, təşəbbüs ilk növbədə qaz tədarükçüsü olan ölkədən, yəni Türkmənistandan gəlməlidir. "Xəzər dənizinin şərq sahilindən əlavə qaz həcmlərini təmin etmək üçün, birincisi, Transxəzər qaz kəmərini onun dibi ilə çəkmək, ikincisi, Bakıdan Avropaya doğru uzanacaq "Cənub Qaz Dəhlizi"ni inşa etmək lazımdır", deyə Prezident planı açıqlayıb. Dövlət başçısının sözlərinə görə, əsas məsələ bu mühüm layihələrin maliyyələşdirilməsidir.

Beləliklə, Türkmənistanın öz karbohidrogenlərini Avropa bazarına çatdırmaqda maraqlı olmasına baxmayaraq, onların uğurla həyata keçirilməsi üçün layihənin maliyyələşdirilməsi kimi bəzi maneələr aradan qaldırılmalıdır. İlham Əliyev onu da qeyd edib ki, hazırda Avropa bankları mədən layihələrini maliyyələşdirməyə hazır deyil və Transxəzər layihəsi üçün vəsait toplamaq ciddi çətinlik yaradacaq.

Azərbaycan keçmişdə "Cənub Qaz Dəhlizi" layihəsini həyata keçirərkən müxtəlif qurumlardan, o cümlədən Avropa İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlardan vəsait cəlb edib. Lakin hazırda bu iki Avropa qurumu belə layihələri maliyyələşdirmir, əksinə, maliyyələrini yaşıl enerji sahəsində layihələrə yönəldirlər.

Qeyd edək ki, türkmən qazının Avropaya nəqli məsələsi həddən artıq siyasiləşib, əslində bu, siyasətdən çox kommersiya məsələsidir. Türkmənistanla Avropa Komissiyası arasında türkmən qazının tədarükü ilə bağlı danışıqlar aparılır və kommersiya strukturları bu danışıqlarda iştirak etmir. Bu səbəbdən Transxəzər qaz kəmərinin hansı xarakter daşıyacağını təsəvvür etmək çətindir. Türkmənistan qazının kimin, hansı həcmdə və nə qədər müddətə alıcı olacağını anlamaq vacibdir ki, Azərbaycan Cənub Dəhlizinə çıxışı təmin edə bilsin. Konsorsium olmadığı üçün layihənin həyata keçirilməsindən danışmaq hələ tezdir. Brüssel və Aşqabad mövcud kommersiya imkanlarını nəzərə alaraq qarşılıqlı istək ifadə etsələr, o zaman Türkmənistan qazının Avropaya nəqli reallığa çevrilə bilər.

### ”Siz mənim gündəlik işimdə mənə yardımçı olursunuz”

Şuşa Qlobal Media Forumda Prezident İlham Əliyevin media nümayəndələrinə təəssüratları barədə dediyi fikirlər də maraqlıdır: ”Mən sizə deyə bilərəm ki, ölkəmizin həyatı ilə bağlı bir çox mühüm məsələləri sosial mediadan öyrənirəm. Media ilə təmaslarımda həmişə deyirdim ki, siz mənim gündəlik işimdə mənə yardımçı olursunuz. Çünki hər bir prezidentin bir-birinə bənzər fəaliyyəti var. Xüsusilə də Azərbaycan kimi ölkədə insan 24 saat işləməlidir və istənilən xəbərə, yaxşı və ya pis xəbərə hazır olmalıdır. Eyni zamanda, fəaliyyətin miqyası o qədər böyükdür ki, bəzən bir də görürsünüz, cəmiyyətin nəbzini müəyyən qədər hiss etməmək olur. Çünki cəmiyyətin nəbzini hər zaman hiss etmək lazımdır. Mən ölkədə səyahət edirəm, insanlarla görüşürəm və təbii ki, sosial mediadan istifadə edirəm. Azərbaycanda baş verən bir çox hadisələr və mənə məruzə edilməmiş bəzi hadisələr, istər bürokratik maneələr və ya bilərəkdən mənə məruzə edilməyən müəyyən məsələlər olubdur və ya mən digər məsələlərlə məşğul olmuşam, hətta mənim nəvələrim mənə müəyyən məlumatları verirlər. Övladlarım sosial mediada gördüklərini mənə deyirlər və mən özüm də sosial medianı izləyirəm. O, mənə çox yardımçı olur. Bəzi məsələlər var ki, məni də müəyyən dərəcədə qıcıqlandırır. Ölkəmizdə ədalətsizlik, bürokratiya, pis idarəçilik və ya digər mənfi hallar, əlbəttə ki, bizim həmvətənlərimiz, hər bir vətəndaş kimi məni də qıcıqlandırır. Ona görə də mənim kommunikasiya kanallarım fərqlidir, müxtəlifdir. Postmüharibə dövrünü və hazırkı vəziyyəti nəzərə alsaq, təhlükəsizlik məsələləri, sülh prosesi, enerji diplomatiyası, qlobal təhlükəsizlik və Azərbaycanın inkişafı mənim gündəlik fəaliyyətimin böyük hissəsini, əsasını təşkil edir. Ona görə də belə bir şəraitdə müəyyən məsələlər mənim diqqətimdən yayına bilər. Həm sosial media, həm ənənəvi KİV-lər mənə kömək edir ki, məsələlərdən xəbərdar olum və ona dərhal reaksiya verim. Sizə deyə bilərəm ki, bir çox hallarda müəyyən dövlət məmurlarının reaksiyası verilir, hətta bir ağacın belə kəsilməsi, - mən onu mediadan bilmişəm, - o, məmurlarda da intizam yaradır ”.

Qeyd edək ki, Forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlərə yanaşı, dünyanın tanınmış və nüfuzlu media rəhbərləri, ekspertləri rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələlər müzakirə edilib.

**V.VƏLİYEV**

# Dünya mediası: Azərbaycan rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır!

## Prezident İlham Əliyevin Şuşa Media Forumundakı çıxışı dünya mətbuatının diqqətindədir

Şuşada keçirilən ”4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Qlobal Media Forumu və Azərbaycan Prezidenti İlham Əliyevin Forumun açılış mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlər dünya mediası tərəfindən işıqlandırılmaqda davam edir. Moldovanın ”Noi”, ”Tribuna”, ”Ava” ”Jurnal1” və digər xəbər portallarında da Forumdakı çıxışı zamanı Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər geniş yer alıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti ölkəsinin Ermənistanla müharibə nəticəsində uzun illər çəkdiyi əziyyətlərdən sonra sabitliyə və inkişafa nail olmağa çalışdığını vurğulayıb. Dövlət başçımıza istinadla vurğulanır ki, Ermənistanla sülh müqaviləsi imzalana bilər, ancaq əsas məsələ ondadır ki, ictimai müstəvidə barışığa doğru addımlar atılsın və onlardan birincisi ermənilər tərəfindən öz günahlarının etiraf edilməsidir.

Azərbaycanın bölgədə barışıq ölkəsi olduğu qeyd edilib və bildirilib ki, Azərbaycan rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır. Rusiya və Amerika silahlı qüvvələrinin yüksək səviyyəli nümayəndələri, çox yüksək, yeni ordu qərargahlarının komandanları, NATO komandanları görüşlər üçün hər zaman Bakını seçiblər. Bu isə Azərbaycana olan etimadın, etibarın göstəricisidir. Bu da onu göstərir ki, Azərbaycan maraqları birləşdirən ölkədir, hətta elə ölkələr arasında ki, onlar hər zaman rəqabətdədir. Yəni, bu, o vaxt idi ki, bu rəqabət dinc aparılırdı. İndiki şəraitdə isə belə təmaslar potensial olaraq Azərbaycanda yenə də bərpa edilə bilər.

Məqalələrdə daha sonra yazılıb ki, Cənubi Qafqazda inkişaf əsasən Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır. Hazırda bir sıra beynəlxalq təşkilatlar bizə qarşılıqlı qəbul olunacaq həlli tapmaqda yardım etməyə çalışırlar. Əlbəttə, bu günə kimi gördüklərimiz odur ki, bütün beynəlxalq təşkilatlar başa düşür ki, bu həllər beynəlxalq hüquq əsaslanmalıdır. İkinci Qarabağ müharibəsi başa çatandan bu günədək təxminən üç il keçib, Azərbaycan getdikcə daha çox sayda birbaşa bəyanatlar eşidir ki, Qarabağ Azərbaycanın ərazisidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı.




TASS agentliyində "argumenti.ru", "iz.ru", "mk.ru" saytlarında yayımlanan informasiyalarda Prezident İlham Əliyevin Azərbaycanın Rusiya ilə münasibətlərinə, iki ölkə arasında imzalanan müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə, Bakıda keçirilən Rusiya-ABŞ dialoqu, ölkəsinin Qoşulmama Hərəkatına yeni nəfəs verməsi, keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı, bu ilin sonuna qədər Avropanın daha iki ölkəsinə Azərbaycan qazının çatdırılması, Transxəzər layihəsi ilə bağlı fikirlərinə geniş yer verilib. Xüsusilə vurğulanıb ki, Azərbaycan Prezidenti indiki şəraitdə Rusiya ilə ABŞ arasında təmasların potensial olaraq Azərbaycanda yenə də bərpa edilə biləcəyini bildirib. İki ölkə arasına münasibətlərə gəlincə, dövlət başçısı Bəyannamə imzalanandan bəri Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafının kifayət qədər uğurlu olduğunu deyib.

Əlcəzairin "al24news" portalı da Şuşada keçirilən Qlobal Media Forumundan yazıb. Bildirilib ki, "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Qlobal Media Forumu media sahəsində yeni tendensiyalar üzrə ən yaxşı təcrübələr barədə fikri mübadiləsi aparmaq üçün yaxşı imkan yaradır. Ümumi müzakirələr zamanı çıxış edən ekspertlər və mütəxəssislər vurğulayıblar ki, media sənayesində qabaqcıl texnologiyalardan geniş istifadə və qlobal rəqəmsallaşma bütün dünyada yeni media mənzərəsinin və bu sektorda yeni dinamikanın yaranmasına səbəb olub.

"albawabhnews.com" saytında dərc olunan məqalədə Prezident İlham Əliyevin xüsusilə Ermənistanla müharibədə Qələbədən sonra ölkəsinin işğaldan azad edilmiş rayonların inkişafının əsas prioritet olması ilə bağlı fikrinə diqqət çəkilib. Eyni zamanda, bildirilib ki, Azərbaycan Prezidenti ölkəsinin Ermənistanla müharibə nəticəsində uzun illər çəkdiyi əziyyətlərdən sonra sabitliyə və inkişafa nail olmağa çalışdığını vurğulayıb.

Bundan başqa, Omanın "omannews.gov.om" saytı və "alwatan.com" nəşrində, Qazaxıstanın "www.egemen.kz" saytında, Gürcüstanın geniş oxucu auditoriyasına malik "netgazeti.ge" portalında Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa Qlobal Media Forumundakı çıxışı geniş işıqlandırılıb.

# Yüksək inkişafa və rifaha əsaslanan siyasət

**Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində əldə olunan nailiyyətlər sayəsində ölkəmizin dinamik inkişafı təmin edilib, qarşıda duran bütün məsələlər öz həllini tapıb. Respublikamızda görülmüş işlər, əldə olunmuş uğurlar və qarşıda duran vəzifələr gələcəkdə də bu müsbət dinamikanın saxlanılacağından, Dövlət Proqramı çərçivəsində nəzərdə tutulmuş bütün vəzifələrin uğurla icra ediləcəyindən xəbər verir.**

İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə

## CARİ İLİN 6 AYININ İQTİSADİ GÖSTƏRİCİLƏRİ UĞURLARIN DAVAMLI OLMASINI GÖSTƏRİR

Dövlətimizin başçısı müşavirədə bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirildiyini, bütövlükdə altı ay ərzində iqtisadiyyatımızın inkişaf etdiyini deyib: "Qeyri-neft sektorumuz və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıbdır. Qeyri-neft sənayemiz 6,5 faiz artıbdır və qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artıbdır. Bununla bərabər, bizim maliyyə vəziyyətimiz böyük dərəcədə yaxşılaşıb, bunun bir çox səbəbləri var. İlk növbədə, maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi - bütün bu amillər imkan verdi ki, ilin ortasında biz büdcəyə yenidən baxaq və dürüstləşmə aparaq. Bu, çox sevindirici haldır, çünki proqnozlardan xeyli dərəcədə böyük vəsait toplanmışdır. Onsuz da bizim builki dövlət büdcəmiz rekord həddə çatmışdır, 33 milyard manatdan çox səviyyəyə qalxmışdır. Ancaq ilin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verdi ki, biz təcili həllini gözləyən məsələləri daha tez zamanda həll etmək üçün büdcəyə əlavələr edək və bunu etdik. Bu gün bizim büdcəmiz 36 milyard manatdan çoxdur. Əlbəttə, bu, bizə imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edək, ilk növbədə, bir daha demək istəyirəm ki, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verək və bizim hərbi gücümüzü artıraq".

Dövlətimizin başçısı onu da vurğulayıb ki, mütləq rəqəmlərdə bizim borcumuz cəmi 6,7 milyard dollardır və bu da ümumi daxili məhsulumuzun təxminən 10 faizini təşkil edir və birinci altı ayda ümumi daxili məhsul 60 milyard manatdan çox təşkil etmişdir. Ümumiyyətlə, Azərbaycan Respublikasının dinamik iqtisadi tərəqqisi bütün sahələrin paralel inkişafına strateji töhfələr verir.

## SON 20 İLƏ YAXIN DÖVRDƏ ÖLKƏ İQTİSADİYYATINA 280 MİLYARD DOLLARA YAXIN İNVESTİSİYA QOYULUB Kİ, BUNUN BÖYÜK HƏCMİNİ XARİCİ İNVESTİSİYALAR TƏŞKİL EDİR

Eyni zamanda, ən əsas məqam son 20 ilə yaxın dövrdə ölkə iqtisadiyyatına 280 milyard dollara yaxın investisiya qoyulub ki, bunun böyük həcmini xarici investisiyalar təşkil edir. Bu mühüm məqam isə Azərbaycanın bu gününə və gələcəyinə inamı nümayiş etdirir. Regionların inkişafını qeyri-neft sektorunun inkişafı kimi dəyərləndirən dövlət başçısı İlham Əliyevin bölgələrə davamlı səfərləri Dövlət Proqramından irəli gələn vəzifələrin icrasında əhəmiyyətli rol oynayır. Prezident İlham Əliyev görülən işlərlə yaxından tanış olmaq məqsədilə mütəmadi olaraq regionlara səfər edir, ictimaiyyət nümayəndələri ilə görüşür, onları narahat edən məsələləri özlərinin dilindən eşitməyi daha məqsədəuyğun hesab edir.

## "BÖLGƏLƏRƏ SƏFƏRLƏRİM NƏZARƏT ÜÇÜN BİR VASİTƏDİR"

"Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası nəticəsində bölgələrdə çox böyük, genişmiqyaslı quruculuq işləri aparılmışdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev cari ilin aprelin aynın 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində deyib.

Bu işlərin davam etdirildiyini və hazırda 4-cü Dövlət Proqramının icra olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirib: "Mənim də bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni, verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda, növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bölgələrdə bizim bəyan etdiyimiz bütün hədəflər təmin edilsin, ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması. Bir sözlə, Azərbaycan bölgələrinin




ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir".

Bəli, Azərbaycanın ümumi tərəqqisi regionlarımızın ahəngdar inkişafından, sosial-iqtisadi və mədəni həyatda əldə olunan nəticələrdən, bölgələrdə həyata keçirilən layihələrdən çox asılıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev regionların inkişafını hər zaman diqqət mərkəzində saxlayır, yerlərdə görülən quruculuq işləri ilə şəxsən tanış olur, müvafiq tapşırıqlar verir. Ən mühüm məsələ isə, Prezident İlham Əliyev hər regionlara hər səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsi olmaqla, dövlət başçısının hakimiyyətlə xalqın birliyini möhkəmləndiyinin göstəricisidir.

Regionların sosial-iqtisadi inkişafını əsaslandıran Dövlət proqramlarının ən mühüm tədbirlərindən biri yoxsulluğun azalmasına yönəlib. Yoxsulluğa qarşı mübarizənin vacib şərtlərindən birini bölgələrdə yaşayış şəraitini yaxşılaşdırmaq və çoxlu sayda yeni iş yerləri yaratmaq təşkil edir. Bölgələrdə yeni iş yerlərinin açılması və işsizlik probleminin, demək olar ki, həlli ölkəmizdə yoxsulluğun aradan qaldırılmasına əhəmiyyətli təsir edib.

## AZƏRBAYCAN BÖLGƏLƏRİNİN ÜMUMİ İNKİŞAFI HƏM SOSİAL XARAKTER DAŞIYIR, EYNİ ZAMANDA, ÖLKƏMİZİ GÜCLƏNDİRİR

Prezident İlham Əliyevin cari ilin aprel ayının 18-də Salyana səfəri zamanı Azərbaycan Televiziyasına verdiyi müsahibəsində regionların sosial-iqtisadi inkişafı dövlətin prioriteti olduğu öz əksini tapıb. Dövlət başçısı qeyd edib ki, bütün hədəflər - insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması bölgələrdə təmin edilir.

Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk dövrdən iqtisadiyyatın şaxələndirilməsini, qeyri-neft sektorunun inkişafını bir vəzifə kimi hökumətin qarşısında qoymuşdu. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı dövlət proqramı sosial-iqtisadi sahədə ilk proqramlarımızdan biri olmuşdur. Qeyd edək ki, ilk proqramın icrası nəticəsində ölkənin regionlarının siması, sözün əsl mənasında, dəyişmişdir, insanların həyat səviyyəsi dəfələrlə artmışdır. Ölkəmizdə islahatların prinsipləri xalqın istəyi və dünya çağırışlarına adekvat aparılaraq Azərbaycanı dünyanın ən nüfuzlu ölkələri sırasına qaldırmış və hər bir azərbaycanlının maraqlarını müasir tələtümlü dünyada təmin etməyə yönəlmişdir. Və dövlət başçımızın regionlara hər səfərləri həm nəzarət üçün bir vasitədir, ən əsas odur ki, bütün hədəflər təmin edilsin, ilk növbədə, insanların rifah halının yaxşılaşdırılsın. Buna misal bu gün "ASAN xidmət" dünyada tanınan ən mütərəqqi Azərbaycan brendi kimi tətbiq edildiyi bütün sahələrdə tam şəkildə özünü doğrultmuş kreativ layihə olarqa vətəndaş məmnunluğunun təmin edilməsində ən yüksək göstəricilərə malikdir.

## CƏLİLABAD DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİNİN AÇILIŞI AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİNİN İNKİŞAFI İSTİQAMƏTİNDƏ ATILAN UĞURLU ADDIMLARDANDIR

Həmçinin, son illərdə Azərbaycanda peşə təhsilinin inkişafı istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İl-



ham Əliyevin 2016-cı il 20 aprel tarixli Fərmanına əsasən, Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, peşə təhsilinin yeni çağırışlara uyğunlaşdırılması, peşə təhsili müəssisələrinin rolunun və statusunun yüksəldilməsi bu sahəyə xüsusi diqqətin təzahürüdür. Və bu gün ölkəmizdə əmək bazarının tələblərinə uyğun kadr hazırlığında peşə təhsilinin rolu artır. Bu sahəyə göstərilən diqqət həm də müasir infrastrukturun formalaşdırılması ilə müşayiət olunur. Və dövlət başçımızın iyulun 20-də Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışını etməsi Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi də regional inkişaf proqramından irəli gələrək bölgədə gənclərin peşə bacarıqlarına yiyələnməsinə yeni imkanlar yaradacaq, eləcə də məşğulluq məsələlərinin həllinə xidmət edəcək. Bir sözlə, Prezident İlham Əliyevin

## BÖLGƏLƏRƏ SƏFƏRLƏRİ HƏM NƏZARƏT ÜÇÜN BİR VASİTƏDİR

Reallıq budur ki, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası nəticəsində bölgələrdə çox böyük, genişmiqyaslı quruculuq işləri aparılır. Ölkə Prezidentinin bildirdiyi kimi, bölgələrə səfərləri həm nəzarət üçün bir vasitədir, yəni, verdiyi tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda, növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bölgələrdə bəyan edilən bütün hədəflər təmin edilsin. İlk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması prioritetdir.

"Mənim də bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni, verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda, növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bölgələrdə bizim bəyan etdiyimiz bütün hədəflər təmin edilsin, ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması. Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir",-deyən dövlət başçımız onu da bildiri ki, beləliklə də, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir.

Artıq bu gün 33 ildən sonra düşmən tapdağından azad edilən Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən tikinti-quruculuq işləri Böyük qayıdış planının icrasını reallaşdırdı. Son dövrlərdə Azərbaycanın əsas prioritetlərindən biri Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsidir. Bu ərazilər 30 il ərzində işğal altında qaldığı üçün bu regionun bərpası Azərbaycan üçün ən önəmli məsələlərdən biridir.

Bütün bərpa və quruculuq işləri plan üzrə həyata keçirilir. Bu proses Azərbaycan hökumətinin, xüsusilə də Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Bəli, bu gün Zəngilanın Ağalı kəndinin sakinlərinin həsrətli günləri vüsala yetişdi. Bununla yanaşı, ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin etdi. Qarabağ və Şərqi Zəngəzurda həyat artıq bərpa edilib. Birinci layihə icra edilmiş və zəngilanlılar öz doğma torpağına qayıtmışlar. Bu, bir daha onu göstərir ki, dövlətimiz güclüdür və iradəmiz yerindədir. Eyni zamanda bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bizim vətəndaşlarımız öz dədə-baba torpaqlarına bağlıdır. Dövlət başçımızın dediyi kimi: "Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir".

*RƏFİQƏ KAMALQIZI*

TƏHLİL

# Böyük qayıdış:
# DÜNYAYA ÖRNƏK OLACAQ AĞDAM!

## Prezident İlham Əliyev: "Birinci mərhələdə bizim əsas vəzifəmiz 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır"

Hər bir azərbaycanlı üçün qəlb ağrıdan tarix olan 1993-cü ilin 23 iyul artıq tarixə qovuşdu. Uğurla sona çatan qələbəmiz işğal tariximizi Zəfərlə əvəzlədi. Nə az, nə də çox, düz 27 il işğal tariximizdən acı-acı yazdıq və o tarixi anaraq böyük sarsıntı keçirdik. Hər dəfə də qayıdacağımıza böyük ümid bəsləyirdik. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz QƏLƏBƏ, ZƏFƏR artıq bizə qələbə ilə yoğrulmuz fikirləri yazmağa imkan verir. Tarixdə çox az xalqlara nəsib olan bir məqamı yaşadıq. Bu qüruru bizə, xalqımıza yaşadan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir. Nə qədər qürurlandırıcı, fərəhvericidir ki, bu gün qalib xalq olaraq işğaldan azad olunan torpaqlarımızda həyata keçirilən abadlıq-quruculuq işlərindən yazırıq. Böyük QAYIDIŞIMIZ uğurla yerinə yetirilir. "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildirdiyi kimi, Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb və Böyük Qayıdış Proqramı qəbul edilib. "Proqramın icrası üçün maliyyə resursları səfərbər edilib. Bu günə qədər infrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər təqribən 7 milyard ABŞ dollarına bərabər olacaq", - deyən Cənab Prezident bunun ancaq başlanğıc olduğunu qeyd edib: "Mərhələlərə bölünən bu proqramın icrasının da nə qədər çəkəcəyini demək çətindir. Çünki birinci mərhələdə bizim əsas vəzifəmiz 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Artıq bir neçə yaşayış məntəqəsində insanlar məskunlaşıblar - Zəngilan rayonunun Ağalı kəndində, Tərtər rayonunun Talış kəndində və Laçın şəhərində. Ancaq bu proses tədricən gedir. İşğaldan əziyyət çəkən 1 milyon insan öz dədə-baba torpaqlarına qayıtmalıdır. Onu da bildirməliyəm, biz bərpa işlərinə start verməzdən əvvəl keçmiş məcburi köçkünlər arasında qeyri-rəsmi sorğu keçirdik ki, onlar öz dədə-baba torpaqlarına qayıtmaq fikrindədirlər, yoxsa yox. Sevindirici hal ondan ibarətdir ki, məcburi köçkünlərin mütləq əksəriyyəti müsbət cavab verib. Bu da təbii ki, görüləcək işin həcmini daha da böyüdür və hesab edirəm ki, mərhələli yollarla şəhərlərin bərpası növbəti beş il ərzində mümkün olacaq.

Mən Laçın şəhərinin timsalında deyə bilərəm ki, bu şəhər cəmi səkkiz ay ərzində tamamilə yenidən quruldu və orada 700-dən çox ailə üçün bu gün şərait var. Həm fərdi evlər, həm çoxmənzilli evlər. Sentyabrın 15-dək məktəb də hazır olacaq, uşaq bağçası da hazır olacaq, xəstəxana da hazır olacaq və digər sosial obyektlər də inşa edilir. Ona görə növbəti beş il ərzində əminəm ki, azad edilmiş bütün şəhərlərdə artıq insanlar yaşayacaqlar. Amma şəhərlərin inkişaf planı, əlbəttə ki, daha genişmiqyaslıdır. Çünki məsələn, əgər Ağdam şəhərini götürsək, işğaldan əvvəlki dövrdə bu şəhərdə təqribən 40, bəlkə də 50 min insan yaşayırdı. Bizim Baş planımıza görə Ağdam şəhərində 100 minə yaxın insan yaşayacaq. Təbii ki, bütün bunlar mərhələli yollarla ediləcək. Çünki vəsait o zaman xərclənməlidir ki, artıq insanlar oraya getməyə hazır olsunlar".

20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmışdı. Noyabrın 10-da Prezident İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub: "Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır". 27 il sonra işğaldan azad olunan Ağdam öz haqqına qovuşdu. Xatırlatmaq yerinə düşər ki, Erməni işğalından əvvəl rayonda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir. Arxeoloji tədqiqatlar zamanı aydın olub ki, ilk qədim insanlar rayon ərazisində 6-8 min il bundan əvvəl, yəni, eneolit dövründə (e.ə. VI-IV minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamışlar. Uzun bir tarixə malik olan Ağdam Dağlıq Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olmuşdur. Ermənistandan öz ata-baba yurd yuvalarından, daha sonra Dağlıq Qarabağdan doğma isti ocaqlarından silah gücünə amansız vəhşiliklərlə qovulub didərgin salınan on minlərlə azərbaycanlı məhz Ağdam rayonuna pənah gətirmişdi. 1993-cü ilin iyul ayının 23-də Ağdamın süqutu ilə başa çatdı. Ağdama edilən son hücumda 6.000 nəfər erməni əsgəri iştirak edirdi. Onların arasında çoxlu sayda xaricdən gəlmiş ermənilər və muzdlu əsgərlər də var idi. Cənab Prezident Ağdamdan olan məcburi köçkünlərlə dəfələrlə görüşləri əsnasında bildirdiyi fikirləri xatırlatmaq yerinə düşər: "Deyirdim ki, torpaqlarımız, Ağdam şəhəri və bütün rayon azad olunandan sonra daha da gözəl şərait yaradılacaq". Prezident onu da bildirib ki, "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır". Ağdamda abadlıq-quruculuq işlərinə başlanılıb. Ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, xalqımıza məxsus dinmədəniyyət abidələrin dağıtmış olsalar da, yenidən bərpa olunur.




### "QARABAĞ REGİONUNA 2026-CI İLƏ QƏDƏR 140 MİN İNSANIN DÖNMƏSİ NƏZƏRDƏ TUTULUR"

Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır, Tərtərin Talış kəndinə, eləcə də Laçına köç yola salındı. İnsanların doğma yerlərdən səsləri eşidilir. Həmin ərazilərin hər bir daşı, qayası, çayı bu səslər üçün qəribsəmişdi. Şəhər, kənd və qəsəbələr yenidən qurulur. "Hər dəfə yeni bir inkişaf layihəsini görəndə, yaxud da ki, təməl mərasimində iştirak edəndə sanki, necə deyərlər, damarıma qan vurulur, yəni, o qədər müsbət enerji verir ki, bu müsbət mənəvi enerji insanı fiziki cəhətdən də gücləndirir. Təkcə, bax, bu bölgənin havası deyil, - mən əminəm, siz də eyni hissləri keçirirsiniz, - özümüzü Şuşada yaxşı hiss edirik, yaxud da ki, Zəngilanda, Laçında. Təkcə havaya görə deyil, daxildən gələn xoşbəxtlikdir. Xoşbəxtlik nədir, bir çoxları özünə sual verir. Amma hər dəfə bu inkişafı görəndə mən özümə deyirəm, yəqin ki, xoşbəxtlik, bax, budur", - deyə Prezident bildirib. Cənab İlham Əliyev bildirib ki, 30-dan çox şəhər və kəndin Baş planı təsdiqlənib, bir çox kəndlərin təməli də qoyulub: "Həm Qarabağ, həm Şərqi Zəngəzur rayonları üzrə təxminən növbəti üç il ərzində 150 mindən çox insanı qaytaracağıq. İndi biz, necə deyərlər, işin ibtidai mərhələsindəyik. Çünki layihələndirmə, tender prosedurları çox vaxt aparır. Biz istəyirik ki, hər şey qayda ilə, qanunla olsun, tam şəffaf olsun və bu da vaxt aparır. Əminəm ki, keçmiş köçkünlər bunu anlayışla qarşılayırlar. Amma təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur".

Tezliklə Ağdam şəhəri də yenidən qurularaq, öz əzəli sakinlərini qoynuna alacaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfərləri və burada yeni müəssisələrin təməllərinin qoyulması tezliklə Ağdamın müasir bir məkana çevriləcəyindən və sakinlərinin əzəli torpaqlarına qayıdacağından xəbər verir. Səfərlər çərçivəsində dövlətimizin başçısının görülən işlərlə tanışlığı və yeni təməllərin qoyulması, tapşırıq və göstərişlərin verilməsi Ağdamın tezliklə qurulmasının göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın cari ilin mayın 2-də Ağdam rayonuna növbəti səfəri bu ərazidə görülən işlərin daha sürətli reallaşmasının təzahürüdür. Səfər çərçivəsində dövlət başçısı "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlin qoyulub. Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək. Müasir tipli mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik enerjisi ilə təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunacaq. Hazırda isə 35 kV-luq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi və bu yarımstansiyaların qidalandırılması üçün 35 kV-luq kabel xətlərinin çəkilməsi işləri görülür. Kəlbəcər rayonu üzrə dayanıqlı elektrik təchizatı üçün 31 kilometr uzunluğunda 110 kV-luq hava xətti çəkilib, 110/35/6 kV-luq Daşkəsən yarımstansiyası yenidən qurularaq, 33,7 kilometr uzunluğunda 110 kV-luq hava xətləri bərpa edilib.

Bəşəriyyətin şifahi və mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da layiqli töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb. Regionlarda da Muğam Mərkəzlərinin yaradılmasına dəstək verən Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağcabədi şəhərində Qarabağ Muğam Mərkəzi inşa olunmuşdur. Daha sonra Fondun təşəbbüsü ilə Bakıda Müasir İncəsənət Muzeyi açılmışdır. Azərbaycan milli musiqi mədəniyyətinə görkəmli muğam ifaçıları bəxş etmiş Ağdam rayonunda Muğam Mərkəzinin inşası işğaldan azad olunmuş ərazilərimizdə digər sahələr kimi, mədəniyyətin də sürətlə dirçəldilməsi istiqamətində ardıcıl işlərin görüldüyünü göstərir.

### AĞDAMDA SALINAN KƏNDLƏR

Bildiyimiz kimi, Ağdamda Xıdırlı kəndinin dövlət başçısı tərəfindən ötən il təməli qoyulmuşdur. Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır.

Rayondan 6 kilometr məsafədə yerləşən Kəngərli kəndin də təməli qoyulmuşdu. Burada 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 290 fərdi evin inşa edilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 1182 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Kəndlərdə tikinti işlərinin 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur.

Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir.

bütün bunlarla yanaşı, Ağdam şəhərində 2-ci yaşayış məhəlləsi salınır. Ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılıb.

Ağdam şəhərində 3-cü yaşayış məhəlləsi də salınır. Bütün bunlarla yanaşı, Ağdamın müasir infrastrukturla təmini və yenidən qurulması onun gələcək işıqlı gələcəyinə hesablanılıb. Qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir. Ağdama da köç karvanları yola salınacaqdır.

**Zümrüd BAYRAMOVA**

# Qubad İbadoğlunun Fətullah Gülənlə iş birliyi təsadüfi deyil

*Fətullah Gülən Q.İbadoğlunu Soros Fondunun Avrasiya proqramlarının rəhbəri Ceff Qoldeşteyn və MDİ-nin Avrasiya proqramlarının rəhbəri Laura Cevetlə tanış edib*

**Azad, demokratik cəmiyyətlərdə yaradılan yüksək imkan və şəraitdən bəzi insanlar sui- istifadə edir, öz məkrli və çirkin məqsədlərini həyata keçirməyə cəhdlər göstərirlər. Bu da əksər hallarda cəmiyyətlər üçün arzuolunmaz nəticələr verir. Yəni, məqsədli şəkildə yaradılan qarşıdurmadan ərazilər dağıntılara məruz qalır, insanlar yaralanır və ya həyatlarını itirirlər. 2016-cı ilin iyulun 15-dən 16-na keçən gecə FETO terror təşkilatı Türkiyədə hələ də yaraları sağalmayan dövlət çevrilişinə cəhdlər göstərdi. Türkiyəni xaos və anarxiyaya sürükləməyə cəhd nəticəsində 246 nəfər ölüb, 2000-dən çox insan yaralanıb. Hadisə zamanı 251 nəfər şəhid olmuş, 2839 nəfər isə yaralanmışdı. Ölkənin paytaxtı Ankara şəhərində polis akademiyası partladılıb. Daha sonra İstanbulda Atatürk Hava Limanı, TRT, AKP-nin Ankara qərargahı zəbt olunub. Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargah rəisi Hulusi Akar və ordunun komanda heyətinə daxil olan bəzi generallar, eləcə də prezidentin baş katibi əsir alınıb. Türkiyə Böyük Millət Məclisi havadan atəşə tutulub.**



O zaman özlərini ”Yurdda Sülh Şurası” adlandıran bir qrup Türk Silahlı Qüvvələrinin rəsmi internet saytında və TRT-də yayımlanan bildirişdə ordunun dövlət idarəçiliyini ələ aldığını, ölkədə fövqəladə vəziyyət tətbiq edildiyini qeyd etmişdir. Gecə saatlarında prezident Rəcəb Tayyib Ərdoğanın xalqa müraciətindən sonra FETO-nun planı alt-üst olub, səhər saatlarına doğru isə təşkilatın silahlı üzvləri təslim olublar. Qiyamçılardan 104 nəfər məhv edilib. İnqilaba cəhddə birbaşa 10 minə yaxın hərbçi iştirak edib. 246 zirehli texnika, 74 tank, 37 helikopter, 24 ədəd ”F-16”, 11 təyyarə və 3 hərbi gəmi istifadə edilib.

## Qubad İbadoğlunun satqınlığı nədən qaynaqlanır?

FETO terror təşkilatının Türkiyədə məkrli planlarının qarşısı alındıqdan sonra geniş və əhatəli əməliyyatlara başlanıldı. Bu zaman hüquq-mühafizə orqanları müəyyənləşdirdilər ki, Fətullah Gülənin rəhbərlik etdiyi FETO-nun bir neçə ölkədə, o cümlədən, Azərbaycanda əlaltıları mövcuddur. Lakin onların əl-qol atması, hansısa təxribatlar törətmələri mümkün olmayıb. Azərbaycan hüquq-mühafizə orqanlarının vaxtında gördükləri tədbirlər nəticəsində FETO-çular saxlanılıblar. Bir neçə gün əvvəl FETO-nun Azərbaycandakı keçmiş rəhbərlərindən olan Döyrüş Cəfərov, təşkilatın maliyyə işlərinə cavabdeh olan Gümrah Əbdürəhmanov, ”Yurd” adlanan mərkəzin direktoru Ruslan Əliyev və təşkilati işlərə cavabdeh olan Anar Əliyev saxlanılıb. Döyrüş Cəfərov, Gümrah Əbdürəhmanov və Anar Əliyevin FETO-nun Azərbaycandakı təhsil və təlim mərkəzlərində uzun müddətdir təşkilatın təbliğatı apardıqları və gənclərin təşkilata üzv olması istiqamətində addımlar atdıqları müəyyən edilib. FETO-nun idarələrində, mətbəələrində, təlim mərkəzlərində, yataqxana mərkəzində və saxlanılan şəxslərin ünvanlarında aparılan axtarışlar zamanı qurumun maliyyə hesabatları, fəaliyyət planlarını əks etdirən sənədlər, FETO ideyalarını yayan radikal dini sənədlər, kompüterlər, elektron yaddaş cihazları, bank kartları, külli miqdarda saxta pul və odlu silahlar ələ keçirilib. Məhz ipin ucunun ələ keçirilməsindən sonra digər üzvlərindən müəyyənləşdilməsi mümkün olub. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin yaydığı məlumatda bildirilir ki, saxlanılan biri Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyasının sədri Qubad İbadoğlu ilə əlaqəsinin olması barədə ifadə vermişdir. Həmin ifadə əsasında Q.İbadoğlunun ofisində axtarış aparılmış, iş üzrə zəruri əhəmiyyət kəsb edən sənədlər aşkarlanmış və Q.İbadoğlu saxlanılmışdır. Hazırda tədbirlər davam etdirilir.

## Necə ola bilər ki, heç bir iqtisadi bilik və savadı olmadığı halda Q.İbadoğlu ”Le Monde”ə, ”Vaşinqiton tayms”a ardıcıl açıqlamalar verib?

Diqqətçəkən məqam ondan ibarətdir ki, polis Qubad İbadoğlunu mövcud faklar əsasında həbs etdikdən sonra müxalif qaragüruh dəstə hay-küy qaldırıb, şər və böhtanlar səsləndirirlər. Xüsusilə də, dünən Q.İbadoğlunu açıq şəkildə tənqid edən Əli Kərimli, Cəmil Həsənli, Tofiq Yaqublu və digərləri bu gün onun müdafiəçisi rolunda çıxış edirlər. Onlar üçün maraqlı deyil öyrənsinlər ki, polis hansı səbəbə görə Q.İbadoğlunu həbs edib? Nədən ki, bu, onlara sərf etmir. Əllərinə şər və böhtanlar səsləndirmək üçün yeni fürsət yaranıb. Əslində isə, Azərbaycan hüquq-mühafizə orqanları ciddi əsaslar olmadan, hər hansı bir əməliyyat keçirməz. Digər tərəfdən, Q.İbadoğlu elə bir siyasi gücə və elektorata malik təşkilat rəhbəri deyil ki, onu sıradan çıxarmaq üçün tədbir görülsün. Q.İbadoğlu FETO terror təşkilatı ilə əlaqəsi olan və F.Gülləndən müəyyən tapşırıqlar alan şəxsdir. Bu baxımdan, o, şübhəli şəxs qismində saxlanılıb. Əminliklə qeyd etmək olar ki, Q.İbadoğlu FETO-nun əlaltılarındandır. Çünki o, dəfələrlə F.Gülənlə bağlı müsbət xarakterli statuslar paylaşıb. Qarşılığında F.Gülən tərəfindən mükafatlandırılıb, eyni zamanda, ABŞ-ın müəyyən siyasi və iqtisadi sferaları ilə əməkdaşlıq əlaqələri qurmasına imkanlar yaradılıb. Q.İbadoğlunun ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariç, dövlət katibinin keçmiş köməkçisi Devid Kremer, NED-in prezidenti Karl Gerşman, Soros Fondunun Avrasiya proqramlarının rəhbəri Ceff Qoldeşteyn, MDİ-nin Avrasiya proqramlarının rəhbəri Laura Cevet və digərləri ilə əlaqələrinin qurulması təsadüfi deyil. Yəni, bu əlaqələrin əsas təşkilatçısı ya birbaşa F.Gülənin özü olub, ya da FETO-ya bağlı şəxslər olublar. Məhz bu cür tanınmış isimlərlə yaxşı əlaqələrinin qurulmasının nəticəsidir ki, Q.İbadoğlu Qərb institutları tərəfindən 10 ilə yaxın vaxt ərzində 14 milyon dollardan çox qrant alıb. Q.İbadoğlunun heç bir iqtisadi bilik və savadı olmadığı halda, dünyaca tanınmış saytlara, qəzetlərə, o cümlədən fransız nəşri ”Le Monde”ə, ABŞ-ın oxunaqlı qəzetlərindən olan ”Vaşinqiton tayms”a, ”Amerikanın səsi” radiosuna ardıcıl müsahibələr, açıqlamalar verib. Açıqlamaları da, əsasən, Türkiyə və Azərbaycanın iqtisadiyyatını, sosial sistemini tənqid etmək, hökumətin bu istiqamətdə siyasətinə qarşı şər və böhtanlar səsləndirmək olub. Bu, bizim əldə etdiyimiz məlumatlar əsasında yazdıqlarımızdır. İstintaq isə daha geniş və əhatəli araşdırmaları üzə çıxararaq məhkəməyə təqdim edəcək. Yəqin ki, bundan sonra müxalifətin dağıdıcı qanadı, o cümlədən Q.İbadoğlu danışmağa söz tapmayacaq və susacaqlar.

***İ.ƏLİYEV***

---

# Ermənistanın iqtisadi kapitulyasiyası: Aİ-Azərbaycan münasibətlərində

*Erməni siyasi-ictimai rəyi və KİV-ləri İlham Əliyevin Aİ ilə qaz anlaşmasını Bakının qələbəsi kimi qəbul etmək məcburiyyətindədir*

Hələ ötən il Avropa İttifaqının (Aİ) Azərbaycana 2 milyard avro maliyyə yardımı ayırması ilə bağlı qərar verməsi faktı Ermənistanda ciddi müzakirə vasitəsinə çevrilmişdi. Bu təlaş indi də davam edir. Erməni ictimai-siyasi rəyi, habelə KİV-ləri daha əvvəl Aİ-nin Azərbaycana ayırdığı 140 milyon dolların 2 milyard avro ilə əvəzlənməsi qərarı ətrafında necə deyərlər, baş sındırırlar, amma buna rəğmən, ortada olan reallığı da qəbul etmək istəmirlər. Daha dəqiq desək, Azərbaycan Prezidenti İlham Əliyevin Aİ-nin daha əvvəl Ermənistana Azərbaycandan demək olar ki, 20 dəfə çox maliyyə yardımı ayırmasına qarşı sərt və qətiyyətli mövqeyini nümayiş etdirməsindən sonra Avropa İttifaqının öz qərarını dəyişməsi faktını həzm edə bilmirlər. Əbəs deyil ki, erməni tərəfi artıq sözügedən məsələni Ermənistanın iqtisadi kapitulyasiyası kimi qiymətləndirirlər.

## Armenianreport: ”Və budur, biz artıq məlumat almışıq ki, Avropa İttifaqı Azərbaycana 140 milyon dollar yerinə 2 milyard avro maliyyə yardımı təqdim edəcək”

Beləliklə, Armenianreport saytının analitik yazarı Romella Mnasakanyan ”Yeni kapitulyasiya: Avropa İttifaqı bizim maraqlarımız hesabına Azərbaycanla sövdələşir” sərlövhəli yazısında ortada olan danılmaz faktı qəbul etməsi yerinə, dolayı vasitələrlə ”malalamağa” cəhd edir. Lakin unudur ki, artıq həmin fakt elə müəllifin yazdığı sərlövhədəki ”kapitulyasiya” ifadəsi ilə etiraf olunub. O yazır: ”Və budur, biz artıq məlumat almışıq ki, Avropa İttifaqı Azərbaycana 140 milyon dollar yerinə 2 milyard avro maliyyə yardımı təqdim edəcək”.

Erməni analitiki 140 milyon dolların 2 milyard avro ilə əvəzlənməsi qərarının səbəbini Azərbaycan Prezidentinin Aİ-ni daha əvvəl Ermənistana 20 dəfə çox vəsait ayırmasını sərt tənqid etməsi ilə əlaqələndirib. Lakin bu da son deyil. Romella Mnasakanyan ermənilərlə yanaşı, Azərbaycan KİV-lərinin də bu məsələni qələbə kimi qiymətləndirməsini yazır və digər amilə də toxunur: ”Azərbaycan KİV-ləri Əliyevin bu addımını qələbə kimi qiymətləndirirlər. Onlar yalnız maliyyə paketi vəsaitinin artırılmasına deyil, həm də Əliyevin iştirakı ilə Fransa prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistan respublikasının baş naziri Nikol Paşinyanın videoformat vasitəsi ilə keçirdikləri görüşünün necə keçirilməsinə də sevinirlər”, - deyə erməni analitik yazarı açıq-aşkar qibtə hisslərini gizlədə bilmir.




## Erməni analitiki: ”Misal üçün, ”artsaxın” statusu məsələsi heç bir halda müzakirə predmeti olmadı, görünən budur ki, hətta Fransa və Aİ ”artsaxın” taleyini boşa verdilər”

O, əlavə edir ki, görüş əsnasında bir çox məsələlərdə razılığa gəlinib ki, Bakı bu məsələlərin müzakirəsini uzun müddət idi ki, inadla tələb edirdi. ”Misal üçün, ”artsaxın” statusu məsələsi heç bir halda müzakirə predmeti olmadı, görünən budur ki, hətta Fransa və Aİ ”artsaxın” taleyini boşa verdilər”, yazan erməni siyasi yazarı növbəti dəfə bu uğursuzluğu və məğlubiyyəti real faktlardan uzaqlaşdırmaqla guya Azərbaycanın Avropanı ”qaz şantajı” ilə hədələməsi ilə əlaqələndirməyə çalışıb. Yəni, aşkar erməni ”prizması” bu dəfə də özünü gözlətməyə macal tapıb. Halbuki, Avropa İttifaqının özü Azərbaycandan qaz almaq, yaxud tədarükünü artırmaq təklifini istəyib. Məlumdur ki, Qərbin Rusiya ilə soyuq münasibətləri və Ukrayna böhranı Avropa İttifaqını qayğılandırır. Belə olan halda Rusiyanın Avropaya nəql etdiyi qazı dayandırmaq ehtimalı artır və Avropanın müraciət edəcəyi yeganə tərəfdaşı yalnız qaz ehtiyatları kifayət qədər olan Azərbaycan ola bilərdi. Bütün bu gerçəklikləri erməni məkri ilə şərh edən analitik iddia edir ki, guya Aİ Azərbaycanın ”qaz şantajı” (?!) qarşısında dayana bilmədi və s.

## Erməni ”təfəkkürü” - sən demə, Rusiya Avropaya qaz nəqlini dayandırmamalıymış və bunu müttəfiqi Ermənistana görə etməliymiş (?)

Ona görə də Mnasakanyan eyni tərzdə davam edir: ”Qaz bu ölkənin (Azərbaycanın) əlində siyasi elementə çevrilib və uzağa hesablanmış geosiyası plan həllərinin atributudur”. Maraqlıdır ki, erməni analitiki burada da, sadəcə, sərsəm mövqe ortaya qoyub. Əlbəttə ki, istənilən dövlət öz iqtisadi və s. imkanlarını ölkənin təhlükəsizlik maraqları üçün sərf etməlidir. Hətta Ermənistanın hər hansı enerji resursları olsaydı, bu ölkə də mövcud vəziyyətdə həmin amili öz səmərəsinə görə istifadə edərdi. Görünür, Romella Mnasakanyanın düşüncə tərzi yalnız erməni ”təfəkkürü” ilə nəticə hasil edir... Bu da azmış kimi, armenianreportun analitik yazarı Azərbaycanı Rusiya ilə eyniləşdirir və bu əsnada Rusiyanın da bostanına daş atmağı unutmur. Gəlin, gülünc ”məntiqə” diqqət yetirək. Sən demə, Rusiya Avropaya qaz nəqlini dayandırmamalıymış və bunu müttəfiqi Ermənistana görə etməliymiş (?). Yəni, Rusiyanın Avropaya qaz nəqlini dayandırmasının nəticəsi olaraq Aİ Azərbaycana ağız açdı və eyni zamanda, 2 milyard avroluq yardım paketi ayırdı. Gülünc iddiadır, deyilmi?

Beləliklə, erməni analitiki yalnız bir gerçəkliyi yazıb - bütün bunlar Ermənistanın növbəti kapitulyasiyasıdır və belə olan halda vəziyyətdən çıxış yolu tapmaq da elə erməni ictimai siyasi rəyinin öz məsuliyyətinə düşür...

***Afət Tahirqızı***

TƏRS + BAXIŞ

# Tofiq Yaqubluya bir neçə xatırlatma

**22 iyuldakı statusunuza isti-isti cavab yazmaq istədim, lakin sizə görə bayram əhval-ruhiyyəmi əsla poza bilməzdim. İyulun 23-ü də cavab yazmadım, çünki istirahətimi sizdən yana pozmaq əsla xəyalımdan keçə bilməzdi. Bu cavabı saxladım adi iş gününə, gözünüzü-könlünüzü intizarda qoyaraq, susmaqdan böyük cəzanın olmadığını bilərəkdən. Lakin bu zayıllamağa tamamilə cavab verməmək də mümkün deyildi. Çünki sizə (görürsünüz, ayın 24-də isə tərbiyəmi yerində saxlayaraq yenə də ”sənə” deyil, ”sizə” ifadəsindən istifadə edirəm) xatırlatmaq istədiyim bir neçə məqam var. Hansı ki, bunları görünür, siz tamamilə unutmuşunuz.**



Birinci məqam: AXCP-Müsavat cütlüyünün üzvləri arasında qəti şəkildə dövlətimizin başçısının adını dilə gətirməyə layiq bir kimsə yoxdur. Bu səbəbdən də xatırladım ki, bu adı dilinizə almayın. Çünki kənardan çox cılız və gülünc görünürsünüz.

İkinci məqam: Son 20 ildən artıq dövrdə xalq da, jurnalistlərin özü də onlara göstərilən dövlət qayğısına şahiddir, sizin hakimiyyətdə olduğunuz o bədbəxt illərdə də şahid oldu. O illər ki, kreslonuzu qorumaq üçün torpaqlarımızı böyük qardaşlarınıza peşkək etdiniz. Və düz 30 il dövlət bu səhvin aradan qaldırılması ilə məşğul oldu. Sizin səhviniz, tamahınız ucbatından 30 ilin o başında da minlərlə şəhid verdik, bu başında da. Ölkəmizin nə qədər maddi və mədəni irsi yox edildi, təbii sərvətləri göyə sovruldu. Ən əsası isə minlərlə insan illərlə sizin ucbatınızdan köçkün həyatı yaşadı. Hə, yeri gəlmişkən, bu yolda neçə jurnalistləri qurban verdiyinizi də xatırlasanız, yaxşı olar. Mən sizə bir ipucu verim: yerdəki qurbanlarınız, göydəki qurbanlarınız... Bunlar hamısı sizin qanlı əllərinizlə, planınızla olmadımı?

Üçüncü məqam: ən ağrılı yeriniz olan ”Səs” qəzetinin tarixini sizə xatırlatmaq istəyirəm. Bu qəzetin 32 yaşı var. Status yazarkən xronologiyanı qarşınızda tutun ki, sonradan cəmi bir qərinəyə malik tarixi bilmədiyinizi üzünüzə çırpmasınlar. ”Səs” qəzeti 32 il bundan əvvəl yarananda AXC-Müsavat kimi cütlüyün üfunətini Azərbaycan mətbuatından kənarlaşdırmaq məqsədi daşıyırdı. Mətbuatımızın milli şüarı da bu qəzetin illərdir ki, rəmzinə çevrilib: düzü düz, əyrini əyri görmək və yazmaq. Bundan başqa ”Səs”in heç bir məqsədi və məramı olmayıb. Düzü yazdığı üçün bu redaksiya hücumlarınızı, burada çalışan jurnalistləri təhdid etdiyinizi də xatırladım ki, üfunəti küləyin haradan Azərbaycan mətbuatına əsdiyini də xatırlamış olasınız.

Dördüncü məqam: onu da öyrənməyi məsləhət bilirəm ki, ”Əkinçi” haqqında paylaşdığınız fikirlər əsla etik qanunlara sığmır. Bu ifadələri işlətməklə siz Milli Mətbuat Günündə milli mətbuatımıza qarşı saydığısızlığınızı nümayiş etdirdiniz. Bu elə bir tarixdir, elə bir yaranışdır ki, illərdir qorunaraq bu günlərə gəlib çıxıb. Yoxsa, bunu da unutmuşunuz? Açın yenə də xronologiyanı, baxın görün, son 30 ildə milli mətbuatımıza göstərilən qayğı, onun qorunması üçün görülən işlər ”Əkinçi”dən bəri daha hansı illərdə olub? Ümidvaram ki, 90-cı illərdə sizlər hakimiyyətdə qalsaydınız, ”Əkinçi”nin başını dediyiniz kimi əkib onun tarlasına elə bir toxum səpəcəydiniz ki, üfunətindən baş götürüb bu ölkədən gedəsi olacaqdıq. Həmin illərdə ölkədə yaratdığınız iqtisadi böhran ucbatından insanların iş dalınca xarici ölkələrə üz tutduğu, jurnalistlərin aclıq, səfalət içərisində yaşadığı, aylarla əməkhaqlarını ala bilmədikləri kimi...

Beşinci məqam: deyir, bilsən ki, danışdığına qarşındakı necə cavab verəcək, bir qədər düşünüb, sonra ağzından artıq quluna çevrildiyin sözləri çıxararsan. El arasında deyildiyi kimi, hərcayi sözün mərcayi cavabı... Buyurun!

***Mətanət Məmmədova***




# ”Türkiyə Avropa Birliyinə qəbul olunmasa İsveçin NATO üzvlüyünə qəbuluna razılıq verməyəcək”

“Avropa İttifaqının xarici siyasət xidmətinin rəsmi nümayəndəsi Piter Stano ”İzvestiya” qəzetinə bildirib ki, ”Türkiyə 2024-cü ildə Avropa Birliyinə üzv olmayacaq, birlik hələlik Ankaraya hətta vizasız rejim də verməyə hazır deyil”.

Türkiyənin avropa ailəsinə qoşulmaq perspektivlərindən danışan Stano bildirib ki, Aİ-yə üzvlük prosesi saatlarla deyil, illərlə davam edir, müzakirə olunan məsələlərə insan haqları və siyasi azadlıqlar da daxildir. Fransa parlamentinin deputatı ”Thierry Mariani” nəşrə bildirib ki, o, Ankara ilə danışıqları bərpa etməyin mənasını görmür”. Bunu ”Alyans” strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov ”Səs” qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, Fransa təmsilçisinin səmimiyyətlə açıqladığı məsələlər Türkiyə hakimiyyəti üçün qətiyyən yenilik deyil: ”Nəinki Ankaradakı hakimiyyət təmsilçiləri, hətta sıravi türklər də bu reallıqları yaxşı bilir və AB-nin bu cür təmsilçilərinin ara-sıra verdikləri bu cür ”səmimi” bəyanatları hiddətlə qarşılayırlar. Nə qədər səbrli davranmağa çalışsalar da Türkiyə hakimiyyətinin ən yuxarı eşelonuna daxil olan yüksək vəzifəli şəxslər də bəzən reallaşması qətiyyən mümkün olmayan kəskin bəyanatlar vermək məcburiyyətində qalırlar. Dünyada böyük nüfuz sahibi olan Rəcəb Tayyib Ərdoğanın AB üzvlüyü ilə əlaqədar səsləndirdiyi son bəyanat da bu qəbildən sayılmalıdır. NATO-nun Vilnüs sammitinə yola düşərkən Türkiyə prezidenti Avropanın nüfuzlu beynəlxalq qurumunun yeritdiyi ədalətsiz siyasətə etiraz olaraq dünyanı şoka salan bəyanat verdi və qəti şəkildə söylədi ki, ”Türkiyə Avropa Birliyinə qəbul olunmasa İsveçin NATO üzvlüyünə qəbuluna razılıq verməyəcək”. Təşvişə düşən qərb liderləri Rəcəb Tayyib Ərdoğanı dilə tutaraq onu müxtəlif vədlərlə bu mövqeyindən çəkindirməyə çalışdılar və son nəticədə məqsədlərinə nail oldular. Bununla belə hamı etiraf etdi ki, Vilnüs sammitinin əsas





fi-quru gözlənildiyi kimi Ukrayna prezidenti deyil Türkiyə lideri oldu. ABŞ-dan F-16 qırıcıları ilə, İsveçdən AB üzvlüyünə dəstəklə bağlı vədlər alan prezident Ərdoğan İsveçin atacağı addımların ”yol xəritəsi”ni təqdim etməsi şərtilə NATO-ya qəbuluna ”yaşıl işıq” yandırdı.

Müdriklər ”heç bir uğur cəzasız qalmır”-deyiblər. Şübhə yoxdur ki, Türkiyənin NATO sammitindəki uğuru cavabsız qalmayacaq və bu ilk növbədə özünü AB üzvlüyünə qəbul prosesində göstərəcək. NATO sammitində baş verənlərin gələcəkdə AB toplantılarında təkrarlanması ehtimalı qərb liderlərini qorxutmaya bilməz. NATO-da Türkiyə ilə birlikdə hərəkət edən Macarıstanın AB-də Rusiyaya qarşı sanksiya qərarlarının qəbul olunması zamanı yaratdığı problemlər avropanın aparıcı dövlətlərini onsuz da kifayət qədər narahat edir. Bu səbəbdən Macarıstanla müqayisədə daha çox müstəqil siyasət yeridən Türkiyənin AB-yə yaxın 10-15 ildə qəbul olunma ehtimalı demək olar ki, yoxdur”.

A.Səmədov onu da bildirdib ki, AB bu niyyətini 2021-ci ilin sentyabrında Avropa Birliyi Komissiyasının Qonşuluq və Genişlənmə müzakirələri Baş Direktorluğunda struktur dəyişikliyi aparmaqla açıq şəkildə ortaya qoydu: ”Bu dəyişiklikdən sonra Türkiyə 4 balkan ölkəsi ilə birlikdə namizəd ölkələrin yer aldığı qurumdan çıxarıldı və Orta Şərq və Afrika ölkələri ilə yeni yaradılan Cənub qonşuları və Türkiyə bölməsinə daxil edildi. Bu bölməyə Əlcəzair, Tunis, Fələstin, Liviya, Suriya kimi dövlətlər daxildir. Bu addım bir daha açıq şəkildə göstərdi ki, 1958-ci ildə AB-nin yaranmasının ardından Baş nazir Adnan Menderesin ortaqlıq müraciətini göndərməsindən sonra 65 il qapı ağzında saxlanılan Türkiyə dövlətini yaxın illərdə öz sıralarına daxil etmək planları yoxdur.Bu şəraitdə Türkiyə necə davranmalıdır? Sonuncu dəfə Rəcəb Tayyib Ərdoğan 2015-ci ildə ”artıq AB üzvlüyü bizi maraqlandırmır”-desə də qardaş dövlətin lideri iqtisadi inkişaf naminə bu addımın atılmasını və AB üzvlüyünə qəbulda israr etməyin gətirəcəyi dividentləri hamıdan yaxşı başa düşür. Vilnüs Sammitinə yola düşərkən verilən kəskin bəyanatın kökündə də bu amil dayanır. Bir şey aydındır. Türkiyə bundan sonra da AB üzvlüyünə qəbul olunmaq istiqamətində israrlı müraciətlərini davam etdirəcək. AB-nin aparıcı dövlətləri isə bu prosesi maksimum uzadacaqlar və Türkiyədə ”üzüyola” hakimiyyətin formalaşacağı günü gözləyəcəklər. Son prezident seçkilərində qərb liderlərinin Kemal Kılıcdaroğlunun qələbəsinə bəslədikləri ümidlər özünü doğrultmasa da onlar ruhdan düşmək niyyətində deyillər. İnanırlar ki, Avropa Birliyinin ”standartlarına” uyğun gələn ”sözəbaxan” lider yaxın illərdə Türkiyə hakimiyyətinin olimpinə qalxa biləcəkdir”.

***GÜLYANƏ***

# Məhərrəm ayında toy edəkmi?..

**Artıq bir neçə gündür ki, hicri-qəməri təqvimi ilə məhərrəmlik ayı başlayıb. Gözümüzü açandan bəri görmüşük ki, bu aya qədər hamı övladının toyunu, nişanını edib, söz almağa gedib. Bütün bu işləri elə planlaşdırıb ki, məhərrəmlik ayına qalmasın. Çünki bu aya sayğı duyulub, bu ayda xeyir işlər görmək, toy etmək hörmətsizlik hesab olunub. Hətta yeni evə köçmək, yeni əşya, paltar almaq, tikdirməyi də insanlar günah bilib, bu işləri ya məhərrəmlik ayından əvvəl edib, ya da sonraya saxlayıb.**



Əslində, burada günah deyilən heç nə yoxdur. Valideynlərimiz də zaman-zaman dünyalarını dəyişir, gənc bacı-qardaşlarımızın da ömrü yarımçıq qalır, şəhidimiz də olur, lakin biz illər sonra bu acıları unutmasaq da, yenə də övladlarımız üçün toy da edirik, yeni mənzil də alırıq və sair. Lakin təbii ki, bu toyları, nişanları, xınayaxdıları o tarixlərin ərəfəsinə salmırıq, çünki o tarixlər hər birimizin yaralı yeri, əzizlərimizi itirdiyimiz tarixlərdir.

Bu günlər şadlıq evlərində toyların keçirilməsi ilə bağlı aparılan sorğularla mətbuatda tanış olarkən onların bəzilərinə toyla bağlı heç bir müraciətin olmaması, bəzilərinə isə xeyli sayda toy sifarişlərinin təklifi barədə məlumat alandan sonra məhərrəmlik ayında toy məsələsini yenidən gündəmə gətirməyə, bu barədə fikirlərimizi oxucularla bölüşməyə, ilahiyyatçı və dindar insanların bu məsələyə münasibətini öyrənməyə çalışdıq. Məhərrəmlik ayında toy ola bilərmi? Məhərrəmlik ayında toy edəkmi? Bu fikirləri müzakirəyə başlayaq.

### Sayğı, hörmət milli-mənəvi dəyərimizdir

Bəli, xalqımızın milli-mənəvi dəyərlərindən biri də sayğı-hörmətdir. Zaman-zaman şahidi olmuşuq ki, qonşuluqda yas düşüb, yaxın, uzaq qonşu bu yasa görə övladının toyunu təxirə salıb, qarşıdakı həftəyə keçirib. Qohumluqda isə bunun daha çox şahidi olmuşuq ki, yaxın qohumlarımız rəhmətə gedəndə toy təxirə salınıb, dünyasının dəyişən adamın vəfatının bir ili gözlənilib. Qonşumuzda kimsə vəfat edəndə qırx gün evlərimizdə televizor açılmayıb, musiqi səsləndirilməyib. Valideynlərimiz bizə qəti olaraq tapşırırdı ki, birdən bilməzsiniz, bayıra bu evdən bir səs çıxar, ayıbdır. Yaşlı qadınlar qonşunun xətrinə saçlarına xına, boya qoymurdular ki, ayıbdır: onlar yaslıdır, biz saçımızı boyamayacağıq ki... Bunlar insanların, qohum-əqrəbanın, qonşuların bir-birinə böyük hörmət hissindən, sayğısından irəli gəlirdi.

Biz isə zamanla bu mühitdə böyüyüb tərbiyə almışıq. Bu səbəbdən də milli-mənəvi dəyərlərimizin qoruyucusuna çevrilmişik, onları yaşadanlar olmuşuq.

Eləcə də məhərrəmlik ayı girdimi, görmüşük ki, toy, nişan, bitdi. Evə yeni əşya, təzə paltar almaq, tikdirmək dayandırıldı. Saxlandı məhərrəmlikdən sonraya. Bizə belə təlqin olunub ki, günahdır, toy etmək, nişan aparmaq, qırmızı bağlamaq olmaz. Yeni paltar almağı, tikdirməyi saxlamaq lazımdır məhərrəmlikdən sonraya. Yeni evə "günah" çıxandan sonra köçmək daha yaxşı olar. Bu təfəkkürlə də illərdir, belə qənaət formalaşıb ki, bəli, məhərrəmlik ayında xeyir iş görəriksə, xeyrini görmərik, ziyan çəkərik. Lakin bu, əslində bir qorxu deyil, daha çox inanc olub. Bunun əsasında isə sayğı və hörmət dayanıb.





### Bəs müasir dövrümüzdə...

Müasir dövrümüzdə necədir? Bütün adət-ənənələrimiz kimi, gözəl dəyərlərimiz də unudulub, "müasirləşməkdədir". Hələ məhərrəmlik ayını qoyaq bir kənara. Çünki bu, bir dini etiqaddır və hər kəs dinə eyni səviyyədə yanaşmadığından fərqli nüanslar da meydana çıxır.

Lakin gəlin görək bir-birimizə sayğı və hörmətimiz illər öncəki qədər qalıbmı? Dəfələrlə şahidi olmuşuq ki, qonşuluqda yas mərasimi keçirilir, bu biri qonşu çal-çağırla evinə gəlin gətirir. Yas mərasiminin iştirakçıları qapı-pəncərələrdən içəriyə dolan bu səsi dinləməli olurlar.

Qapibir qonşumuzda vəfat edən olur, camaat yas mərasiminə yığışır, küçədə gənc qonşu oğlanın maşınından ətrafa elə bir musiqi səsi yayılır ki, qulaq tutulur. Öz kefində maşın yuyur və yaxud da sadəcə maşınını həyətdə saxlayıb, musiqi dinləyir və "dinlədir"...

Eləcə də televizorların, maqnitofonların səsi əvvəlkitək susdurulmur daha. Bu gün qohumda, qonşuda dünyasını dəyişən adamın yaxını səhəri gün evimizə gələndə televizoru da açıq görür, hələ üstəlik qulaqbatıran musiqi ilə də qarşılaşır.

Biz itirə-itirə gedirik. Haradək gedəcəyik, bu itirdiklərimizin yerini nə ilə dolduracağıq, bax, əsas məsələ budur. Faktdır ki, artıq dəyərlərimizi dəyərdən salmışıq. Dəyərdən saldıqlarımız isə əslində bizim özümüzü dəyərsizləşdirir.

Elə məhərrəmlik ayının timsalında bax bu dəyərlərə də toxunmağımız düşünürəm ki, yerinə düşdü. Çünki məhərrəmlik ayını da zaman-zaman dəyərlərimizdən birinə çevirmişdik.

Bu gün bu dəyərin də üstündən xətt çəkib, ilin 365 gününün cəmi 40-50 gününü gözləyə bilməyənlərin, nədənsə toyunu məhz elə həmin günlərə sığdırmaq istəyənlərin görəsən arzusunun səbəbi nədir?

### İlahiyyatçı və dindarlar deyir ki...

Məhərrəmlikdə toyların olub-olmaması ilə bağlı ilahiyyatçı Vüqar Abbasovla söhbətləşdik. Vüqar müəllim deyir ki, müqəddəs "Quran-i Kərim"də məhərrəmlik ayında toyların keçirilib-keçirilməməsi ilə bağlı heç nə göstərilməyib. Lakin din spirtli içkiləri qadağan edir. Bu səbəbdən də məhərrəmlik ayında toy etmək olar, ya olmaz, sualı meydana gəlir. İlahiyyatçı düşünür ki, içkisiz toy keçirməkdə heç bir problem yoxdur.

Dindar Məhərrəm Qasımov isə ilahiyyatçımızdan fərqli olaraq düşünür ki, illərdir, bu ənənəni qoruyub saxlamışıq. İslam dininin möhkəmlənməsi uğrunda şəhid olan insanların ruhuna hörmət hissi olaraq bu ayda şadyanalıq etməmişik. Hələ üstəlik gündəlik həyatımızda bəzi məişət yeniliklərini də təxirə salmışıq. Gözləmişik ki, məhərrəmlik çıxsın, sonra bütün işlərimizi həyata keçirərik. Bu, ata-babalarımızdan qalan bir miras olub, onu zamanla yaşadanlar isə biz olmuşuq. Lakin eşidirik ki, məhərrəmlik ayında toy, nişan edənlər olur. Düşünürsən ki, yəni bu insanlar 12 ayda vaxt tapmayıb, elə bu ayı gözləyirmişlər?

Söz yox ki, hər kəsin dinə baxışı ayrıdır. Bəzi insanlar bu ayda şəhid olmuş din adamları ətrafında birləşir, onların əməllərini, ideyaları yaşadır. Bəzi insanların isə dinə baxışı tam fərqlidir. Onlar bu ay haqqında sadəcə məlumata sahibdirlər. Və bu barədə bildikləri onlar üçün sadəcə adi bir həyat hadisəsidir. Ona görə də hər kəsin fikirlərinə də hörmətlə yanaşmaq lazımdır. Görsək ki, illər uzunu bir xeyir iş üçün bu ayın ötməsini gözləyən adam məhərrəmlik ayında toy, nişan etməyə cəhd göstərir, bəli, onda bizə qəribə gələr ki, bu adam nə üçün dəyişdi?

Ümumilikdə isə qəbul etdiyimiz dinə hörmətlə yanaşmaq hər kəsin daxilindən gələn bir hissdir.

Məhərrəm müəllimə müasir dövrdə milli-mənəvi dəyərlərin unudulması ilə bağlı sual verəndə, o, bu barədə çox narazılıqla danışdı. Qeyd etdi ki, bu, hər bir ağsaqqal-ağbirçəyin yaralı yerdir. Çünki biz nəsilləri bu cür yetişdirməmişdik, belə olmasını da əsla istəməzdik. Hər gün biz dəyərimizi itirməklə haraya gedib çıxa bilərik? Qohumluq, qonşuluq əlaqələri hörmətlə, dəyərlərlə sıx bağlıdır. Bu dəyərlər itirildikcə, təəssüf ki, münasibətlərə də təsirsiz qalmır. Bir də baxıb görürük ki, nə böyük qalmış, nə kiçik, nə yol qalmış, nə də iz...

Dindar Musa Əliyev isə məhərrəmlik ayında toy edilməməsini məsləhət görür. Vurğulayır ki, biz öz yaxınlarımıza necə hörmət bəsləyiriksə, dinimizin yaradıcısı olan Məhəmməd Peyğəmbərin ailə üzvlərinə də eyni sayğı ilə yanaşmalıyıq. Ata-anamızın rəhmətə getdiyi günlər toy edirikmi? 20 Yanvar, Xocalı faciəsinin törədildiyi gün toy edirikmi? Əlbəttə, xeyr. Belə isə məhərrəmlik ayında da toy etməyi məsləhət bilmirəm. Çünki bu ayın müxtəlif günlərində müxtəlif hadisələr baş verib. Unutmayaq ki, bu gün qəbul etmədiyimiz, pozmağa çalışdığımız dəyərlər var ki, sabah baxıb görəcəyik ki, əlimizdə onlardan heç biri qalmayıb. Bu səbəbdən də dəyərlərimizi qorumağa çalışaq.

### Qoy həmişə toy olsun, lakin dəyərlərimiz çərçivəsində

Bizdə belə bir inanclar da var ki, bəzən uğursuz nikah zamanı düşünüb-daşınırıq ki, bu toy may ayında olub. Deyirik ki, gərək may ayında etməzdik. Yəqin ona görə belə oldu. Uşaq xəstə olur, düşünüb tapırıq ki, bunun valideynlərinin toyu Ramazan ayında olmuşdu, gərək etməzdik, yəqin ona görə belə oldu. Yol qəzası baş verir, düşünüb tapırıq ki, məhərrəmlikdə səfərə çıxdıq, yəqin bu səbəbdən oldu. Cavan itkimiz olur, yenə düşünüb tapırıq ki, bu nə üçün belə vaxtsız həyatını itirdi, ona görə ki, məhərrəm ayında spirtli içki içirdi.

Yeni evimizdə hansısa bir xoşagəlməz hadisə ilə qarşılaşanda deyinirik ki, axı bu evə biz nə üçün məhərrəmlikdə köçdük, gərək gözləyərdik bu ay çıxardı. Görürsən zərərini çəkirik.

Bax bunları deyən də özümüzük, məhərrəmlikdə, Ramazanda toy-nişan edən də özümüzük. Əslində bu hadisələrin bəlkə də bu aylardakı toy-düyünlə, nişanla əlaqəsi yoxdur. Lakin ürəyimizə gətiririk ki, bunlar bu səbəbdəndir. Sonra da yenə məhərrəmlik, Ramazan aylarında toy-nişan etmək fikrinə düşürük.

Qoy həmişə toy olsun. Lakin əlbəttə, dəyərlərimizə hörmət, sayğı çərçivəsində. Bu gün qonşuluqda yas mərasimi keçirilirsə, maşınlar siqnal verməsə də olar, gəlin vağzalısız da evdən çıxa bilər və yaxud yeni evinə musiqisiz də daxil ola bilər. Yadımdadır, 2020-ci ildə müharibədən xeyli sonra toylar başlandı. Lakin hələ şəhidlərimizin il mərasimi olmamışdı. Həqiqətən xalq onların yolunu gözlədi. Bir o qədər təntənə ilə rastlaşmadıq. Lakin olurdu, aradabir maşınların gəlin apararkən siqnal səsləri eşidilirdi. Bu an ürəyimiz nifrət hissi ilə dolurdu. Hansı düşüncə ilə bu siqnalların verilməsini qınayırdıq. Toy edən insanları ittiham edirdik: bizim şəhidimiz var, bunların siqnalına baxın.

Belə isə dərindən düşünəndə nəyi etməyi, nəyi etməməyi anlamaq o qədər asan olur ki... Odur ki, gəlin dərindən düşünək. Dəyərlərimizi yaşadaq ki, onları və bizləri də yaşadanlar olsun...

***Mətanət Məmmədova***

# Qarabağ ipəyi yenə dünyaya səs salacaq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb*







Azərbaycan ərazisində ipəkçilik 5-7-ci əsrlərdə yaranıb. Sənaye mərkəzlərindən biri də Azərbaycanın dilbər guşəsi, ipək məhsulları ilə məşhur olan Qarabağdır. Qarabağ qədim zamanlardan öz əl işi ipək məmulatları, xüsusən də, son dərəcə incə ipək xalçaları və gözəl orijinal naxışlı cecimləri ilə məşhur olub. Bu baxımdan, Ləmbəran kəndi xüsusi şöhrət qazanıb. Qarabağın ermənilər tərəfindən işğalından sonra bu təsərrüfatlar məhv edilib, nadir incəsənət nümunələri olan











ipək xalçalar, kələğayılar, cecimlər və başqa nümunələr yağmalanıb.

Azərbaycan ipəyi XII əsrdən etibarən Böyük İpək Yolu ilə Avropa və Asiya ölkələrinə ixrac olunub. XI əsrin 70-ci illərində Şamaxıya səfər etmiş italyan səyyahı Ambrozio Kontarini xatirələrində yazırdı ki, bu şəhərdə yüksək keyfiyyətli ipək parçalar hazırlanır. Həmin dövrlərdə Şamaxıdan Rusiyaya, İraqa, Suriyaya və başqa ölkələrə ipək aparılırdı.

Qarabağ tarixən ipəyi ilə məşhur olduğu üçün ticarət karvanlarının, tacirlərin ən çox yol saldığı bölgə olub. 1875-ci ildə Cəbrayılda ipəktoxuma fabriki açıldı. Burada istehsal olunan ipək daha baha qiymətə Avropa ölkələrinə ixrac edilirdi. Həmin ildə Şuşa rayonunda bu tipli daha 2 zavod açılıb.

XVII əsrin 30-cu illərində ölkəmizdə hər il 26-27 min pud xammal toplanırdı. Hər il Şirvanda 16,5 min pud, Qarabağda isə 11 min puda qədər xammal istehsal olunurdu. 1894-cü ildə Şuşa qəzasında yerləşən və onların sayı 16-ya çatan fabriklər ipək-toxuculuq fabrikində əsas rol oynayırdı. Avropa ölkələrinə ipək ixrac etməklə yanaşı, Qarabağ bölgəsində ondan bahalı xalçalar hazırlanırdı. 1915-ci ilə qədər Cəbrayıl rayonunda ipəktoxuma zavodlarının sayı 3-ə, Şuşa rayonunda 22-yə çatmışdı. Azərbaycanın SSRİ-yə daxil olduğu dövrdə Qarabağda 25 ipəktoxuma zavodu fəaliyyət göstərirdi.

1925-ci ildə Qarabağ bazarı Azərbaycanda barama və digər ipəkçilik məhsullarının əsas bazarlarından biri hesab olunurdu. Onu da qeyd etmək lazımdır ki, həmin dövrlərdə ipəkçilik təsərrüfatının dirçəldilməsinə və təkmilləşdirilməsinə mühüm təkan xüsusi ipəkçilik kooperativləri tərəfindən verilib.

Azərbaycanda baramaçılığın və ipəkçiliyin inkişafında əsaslı dönüş isə keçən əsrin 70-ci illərinin əvvəllərinə təsadüf edir. Həmin vaxt ölkəmizə rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü ilə "Azərbaycan Respublikasında ipəkçiliyin gələcək inkişafına dair tədbirlər haqqında" 1971-ci il 3 mart tarixli qərar qəbul edildi. Bu qərar baramaçılığın və ipəkçiliyin inkişafına böyük təkan verməklə, onun maddi-texniki bazasını, sənaye potensialını genişləndirdi və nəticədə, respublikada barama tədarükü 36,1 faiz artdı. Respublikamız barama istehsalına görə keçmiş Sovet birliyində Özbəkistandan sonra ikinci, istehsal olunan ipəyin keyfiyyətinə görə isə şəriksiz birinci yeri tuturdu.

90-cı illərin məlum hadisələrindən sonra Qarabağ İpək Kombinatının yerləşdiyi Xankəndi şəhərinin işğal olunması, Ordubad Baramaaçma Fabrikinin bağlanması və Şəki İpək Kombinatının fəaliyyətində çətinliklər yaranması sonrakı dövrlərdə ölkə ərazisində barama istehsalının kəskin azalmasına səbəb olub.

Ümumiyyətlə, Azərbaycanda ipəkçilik kənd təsərrüfatının prioritet sahələrindən biri hesab olunur və buna görə də dövlət tərəfindən dəstəklənir. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov da bir neçə gün əvvəl Bərdə və Ağcabədi rayonlarındakı təsərrüfatlarda barama qurutma müəssisəsinin fəaliyyəti ilə tanış olub.

Bu il Bərdə və daha 6 rayonda pilot layihə kimi yaş barama tədarükünə özəl sektor cəlb olunub. Yaxın vaxtlarda müəssisədə xammalın ilkin emalı prosesinə başlanacaqdır. Pilot layihənin nəticələri müzakirə edildikdən sonra növbəti mövsümlərdə bu təcrübənin digər sahələrdə də tətbiqi nəzərdə tutulur.

Həmçinin nazir Ağcabədi rayonuna səfər edib, Qarabağ Atçılıq Kompleksində, Ağcabədi toxumçuluq zavodunda, o cümlədən Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzində olub, burada kollektivlə görüşüb, yaş barama tədarükü, taxıl biçininin gedişi, yazlıq səpin, heyvandarlıq müəssisələrinin fəaliyyəti, taxılçılıq işlərinin gedişi barədə fikir mübadiləsi aparılıb.

Qarabağ işğaldan azad olduqdan sonra ipəyin tarixi vətəninində yenidən baramaçılığı inkişaf etdirmək, ipək istehsalını gücləndirmək barədə məqsədyönlü işlər həyata keçirilir. Dövlət bu sahənin inkişafı üçün fermerlərə subsidiyalar və xüsusi güzəştlər də edir.

2022-ci ildə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin iclasında Azərbaycan, Əfqanıstan, İran, Türkiyə, Tacikistan, Türkmənistan və Özbəkistanda ipək istehsalı bəşəriyyətin qeyri-maddi mədəni irsi siyahısına daxil edilib.

"Azərbaycan folkloru nümunələrinin hüquqi müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa görə ipəkçilik xalq sənəti nümunəsidir və dövlət tərəfindən qorunur. Həmçinin, Azərbaycan Prezidenti 2017-ci il noyabrın 27-də "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nı imzalayıb. Proqramda ipəkçiliyin inkişafı üçün vəsaitin ayrılması nəzərdə tutulur, bunun əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə dövlət büdcəsinin tərtibi zamanı tədbirlərin həyata keçirilməsinə yönəldilmiş ayrılmış vəsaiti nəzərdə tutmaq tapşırılıb. İmzalanmış Proqrama əsasən, tədbirlərin icrasına nəzarət İqtisadiyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilib ki, onlar da, öz növbəsində, ildə bir dəfə prezidentə hesabat təqdim etməyi öhdələrinə götürüblər.

Eyni zamanda, ipəkqurdunun inkişafı proqramı çərçivəsində dövlətimiz Çindən ipək qurdu alıb inkubatorda becərdikdən sonra onları pulsuz olaraq fermerlərə verir və bununla da məhsuldarlığı stimullaşdırır. Müvafiq Dövlət Proqramına əsasən respublikamızda 2025-ci ilə qədər yaş barama istehsalının həcminin 6 min tona çatdırılması nəzərdə tutulub.

Ümidvarıq ki, vaxtilə Qarabağ və Şərqi Zəngəzur üçün xarakterik olan ipəkçiliyi Qarabağda yenidən bərpa etmək üçün lazımı təbirlər görüləcək, Qarabağın xalis ipəyindən hazırlanmış xalçası, kilimi, cecimi, kələğayısı bütün dünyaya təqdim ediləcək. Müstəqil Azərbaycanın tarixi ərazisi olan Qarabağ brendi kimi...

Lalə Mehralı

# İxtisas seçimində nələrə diqqət etmək lazımdır?

*EKSPERT AYDINLIQ GƏTİRDİ*



"İxtisas seçimi zamanı abituriyentlərə, həmçinin onların valideynlərinə ilk olaraq diqqətli olmaları tövsiyyə edilir. Çünki bəzi şəxslər sosial şəbəkə vasitəsilə öz təbliğatlarını apararaq xidmətlərini təklif edir, abituriyent və onların valideynlərinə prosesin guya qəlizliyini və "onlarsız olmazsa, olmaz" simasını təlqin etməklə psixoloji basqı yaradırlar. Məqsəd təbii ki, daha çox abituriyenti ixtisas seçiminə cəlb etməklə, bacardıqları qədər gəlir əldə etməkdir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Elmin Nuri deyib.





Onun sözlərinə görə, bu şəxslər onlara müraciət edən abituriyentlərin hər birinə bəzən, 10-15 dəqiqə həsr edir və növbəti müştərini qəbul etmək üçün tələsirlər: "Çünki ixtisas seçimini işbazlığa çevirən şəxslər üçün hər dəqiqə belə vacibdir. Onları abituriyentin gələcək uğuru, qəbul olunmama riskləri qəti maraqlandırmır. İxtisas seçiminin müddəti bilirik ki, hər il orta hesabla 7-10 gündür.

Hər müraciətçiyə potensial 100-150 manat gözündə baxan belə işbazlar bir dəqiqəni belə boşa vermək istəmirlər. 15 ixtisas müəyyən keçid balına əsasən cəmi 10 -15 dəqiqə ərzində kodlaşdırılır. Lakin bu işə ən azı 90 dəqiqə vaxt ayırmaq lazımdır. Çünki keçid balını bilmək, hər hansı ixtisas üzrə builki plan yerlərinin sayına uyğun hərəkət etmək lazımdır". Ekspert sözlərinə davam edərək bildirib ki, abituriyentin hər kodlaşdırılan ixtisasa nə dərəcədə uyarlığı da nəzərə alınmalıdır: "Çünki hər seçilən ixtisas abituriyentin potensial təhsil obyektidir. Odur ki, bu potensial obyekt necə gəldi müəyyən edilə bilməz. Seçilən ixtisasla bərabər onun karyera bələdçiliyi də abituriyentə təqdim edilməlidir. Bu isə güclü analiz və lazımi zaman kəsimi tələb edir. Odur ki, belə şəxslərə müraciətdən abituriyent və valideynləri maksimum yayınmalı, "Abituriyent" jurnalının keçid balları və plan yerləri, eləcə də illik təhsil haqlarının yer aldığı nömrələrini mütləq əldə etməli və onun əsasında düşünülmüş şəkildə hərəkət etməlidirlər. Amma təbii ki, bu işlər Abituriyent Məsləhət Mərkəzləri ilə bərabər yürüdülsə, daha effektiv olar. Bu səbəbdən istər paytaxtda, istərsə də regionlarda bu mərkəzlərin sayı mütləq artmalıdır".

*L.Sərraf*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Biz möhtəşəm mövsümü səbirsizliklə gözləyirik"



Fantastik məbləğdə transfer pulu ilə "Əl-Nəsr"ə keçən portuqaliyalı futbol ulduzu Kriştiano Ronaldo Yaponiyada təlim-məşq toplanışı zamanı yeni mövsümlə bağlı fikirlərini bildirib. Goal.com bu barədə məlumat yayıb. "Biz Yaponiyada olmaqdan çox şadıq. "Əl-Nəsr" üçün bu, ilk belə səfərdir. Qarşıda bizi iki yaxşı matç gözləyir və həyəcanlıyıq. Yaponiyada hamı futbola çox həvəslidir. Biz şou göstərmək üçün buradayıq.

Yeni mövsümdə bütün kubokları qazanacağımıza ümid edirik. Bəli, çətin olacaq, amma düşünürəm ki, yeni məşqçi və yeni oyunçularla yaxşı komandamız var. Biz möhtəşəm mövsümü səbirsizliklə gözləyirik."- Ronaldo belə deyib.

## ELAN

**29.12.2012 ci il tarixində, 1112-Q43-3129 nömrədə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyat olunmuş, "Humayun" sosial problemlərin həllinə kömək ictimai birliyinin Nizamnaməsi itirilmişdir. İtirilmiş nüsxə etibarsız sayılsın.**



# Silsilə oğurluq edən keçmiş məhkum tutuldu

Bakıda silsilə oğurluq edən şəxs tutulub. DİN-dən verilən məlumata görə, Binəqədi RPİ 40-cı Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində müxtəlif vaxtlarda Çiçək və Hökməli qəsəbələrində 2 evdən 2600 manat dəyərində qızıl-zinət əşyaları, 600 manat dəyərində məişət əşyaları və elektrik naqili, Çiçək qəsəbəsində yerləşən bir binanın qazanxanasından 1600 manat dəyərində mühərrik hissələri, elektrik naqili, təmir alətləri, 2 binanın zirzəmisindən 4250 manat dəyərində 4 ədəd velosiped, 2 ədəd monitor, müşahidə kamerası, istilik sistemləri, təmir alətləri və elektrik naqili oğurlamaqda şübhəli bilinən İmişli rayon sakini, əvvəllər narkotiklərlə əlaqəli cinayətə görə məhkum olunmuş 43 yaşlı Şahin Məmmədov müəyyən olunaraq saxlanılıb. Araşdırma aparılır.

# Noutbuk oğurluğuna görə tutuldu, başqa cinayətləri də üzə çıxdı...



Nizami RPİ 24-cü və 25-ci polis şöbələri əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 17-də T.Abbasov küçəsindəki bir ofisdən noutbuk oğurlamaqda şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş Fuad Bağırov saxlanılıb. Bu barədə DİN məlumat yayıb.

Bildirilib ki, araşdırmalarla onun rayon ərazisindəki bir klinikadan noutbuk, bir köşkdən isə 1120 manat dəyərində tütün məmulatı oğurlaması da müəyyən olunub.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**